RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 255 (8571) ŞƏNBƏ, 5 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Vətənin müqəddəs şəhidləri



Bax: səh. 2

## Təcavüzkar dövlət sülhə məcbur edildi

### İlham ƏLİYEV: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll olundu"



Dekabrın 3-də Nyu Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Sədr.

Hörmətli cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının təşkilində göstərdikləri səylərinə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT Baş Assambleyasının Sədri cənab Volkan Bozkıra öz minnətdarlığımı ifadə edirəm.

Xüsusi Sessiyanın təşkil olunması təşəbbüsünü dəstəkləyən bütün üzv dövlətlərə də təşəkkürümü bildirirəm.

Bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var.

Milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşünün keçirilməsinin təşəbbüskarı olmuşdur.

Ardı 2-ci səh.

## İlham Əliyevin zəfəri

### Bu möhtəşəm qələbə bütün dünya üçün əhəmiyyətlidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə bundan sonra hər il 27 sentyabr Anım, 8 noyabr isə Zəfər bayramı günləri kimi qeyd ediləcək.

Gələcək bütün tariximizdə daim yaşayacaq və millətimizdə qürur hissi yaradan bu hadisələrin mahiyyətini bilmək üçün 44 günlük Vətən müharibəsində qazanılan qələbənin Azərbaycan və dünya üçün hansı əhəmiyyət daşıdığına nəzər yetirməkdə fayda var.

Heç şübhəsiz, sentyabrın 27-dən başlayan və Ermənistanın hərbi təslim aktı ilə başa çatan müharibə haqqında bundan sonra çoxlu əsərlər yazılacaq, sənədli və bədii filmlər çəkiləcək, dissertasiya işləri müdafiə olunacaq. Ancaq indi bəzi ilkin təhlillərin aparılmasına ehtiyac duyulduğu qənaətindəyəm. Məlum olduğu kimi, hərbi əməliyyatlar noyabrın 10-da Rusiya Federasiyası Prezidenti Vladimir Putinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın birgə bəyanat imzalaması ilə başa çatdı.

Ardı 4-cü səh.




## Prezident İlham ƏLİYEV: "Şəhidlərimizi ehtiramla yad edirik!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızla bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısının "Facebook" səhifəsindəki paylaşımında "Şəhidlərimizi ehtiramla yad edirik!" deyə qeyd olunub.

## Əbədiyyət məqamı

**Sükut...**
**Ecazkar səssizlik...**
**Xəzərin, Kürün, Arazın xırçın dalğalarının sakit-sakit axdığı an...**
**Badi kubədən, uca Şəhidlər xiyabanından qanad açan coşqun rüzgarların, Şahdağda, Murovda, Kəpəzdə, Kirsdə, Qoşqarda həzin laylaya çevrildiyi zaman...**
**Vətən fədailərinin ölməz ruhları qarşısında səcdəyə durduğumuz müqəddəs məqam...**
**Susduq, səssizliyə qərq olduq və zaman üçün çox qısa olan bu vaxt dilimində əbədiyyətin özü qədər sonsuz bir aləmdə var olduq...**

İgidlər nərə çəkdi qulaqlarımızda, oğullar od saçdı baxışlarıyla qəlbimizə, üçrəngli bayrağa sarılıb, ayaq basdığı qaraca torpağı laləzar Vətənə çevirən ərlər-ərənlər keçdi gözlərimiz önündən...

"Vətən, sənə canım fəda" hayqıraraq ölümə atılan və bir daha dönməyən minlərlə qəhrəman gördük...

Ardı 6-cı səh.

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Vətən müharibəsində həlak olmuş şəhidlərlə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Əziz qardaşlar və bacılar!

Bu gün biz Vətən müharibəsi döyüşlərində həlak olmuş şəhidlərin xatirəsini yad edirik.

Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib.

Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir.

Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu!

Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq.

Allah şəhidlərimizə rəhmət eləsin, yaralılara tezliklə şəfa, onların ailələrinə və yaxınlarına güc və səbir versin! Uca Tanrı Azərbaycanı və Azərbaycan xalqını qorusun!"

## Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub

Canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükutla yad olunub.

İnsanlar şəhidlərimizin ruhu qarşısında baş əyib, onların xatirəsinə hörmət və ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən, gəmilərdən səs siqnalları verilib.





## Vətən müharibəsinin əbədiləşən tarixləri

Ərazilərini işğaldan azad edən xalqımız Vətən müharibəsində özünün zəngin qəhrəmanlıq tarixinə yeni səhifələr yazdı. Bu möhtəşəm zəfər göstərdi ki, Azərbaycan tarixinin ən güclü dövrünü yaşayır. Bütün dünya gördü ki, Ulu Öndər Heydər Əliyevin xilas etdiyi və yenidən qurduğu, Prezident İlham Əliyevin qüdrətləndirdiyi müasir dövlətimiz indi istənilən problemini həll etməyə qadirdir.

### Müqəddəs savaş

Ötən 28 ildə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar nəticə vermədiyindən problemin müharibə yolu ilə həllinin mümkünlüyü dəfələrlə gündəmə gəlib. Açıq siyasət yürüdən Azərbaycan işğal olunmuş torpaqlarını günlərin birində döyüş yolu ilə azad edə biləcəyini heç vaxt gizlətməyib. Ordunun gücləndirilməsi, müasir döyüş əməliyyatlarının aparılmasına imkan verən yüksək dəqiqlikli silahların qoşunların arsenalına daxil edilməsi, hərbi sənaye kompleksinin yaradılması kimi addımlar da məhz bu məqsədə xidmət edirdi.

Ardı 5-ci səh.

# Təcavüzkar dövlət sülhə məcbur edildi

## İlham ƏLİYEV: “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll olundu”

*Əvvəli 1-ci səh.*

Mən Zirvə görüşü çərçivəsində BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdim. Qoşulmama Hərəkatının bütün 120 üzvü həmin təklifi dəstəkləmişdir. Bu, onların “Bandunq Prinsipləri”, Hərəkatın dəyərləri, multilateralizm və beynəlxalq həmrəyliyə sadiqliyini bir daha vurğulamış oldu. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsü dəstəkləmişdir.

Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə vaxtında zəruri tədbirlər həyata keçirmişdir. COVID-19 ilə bağlı yaranmış vəziyyətə müvafiq olaraq tərəfimizdən adekvat addımlar atılmışdır.

Bu gün ölkə üzrə koronaviruslu xəstələr 46 dövlət xəstəxanasında müalicə olunur. Pandemiya başladığı zaman bizim 6 funksional laboratoriyamız var idi. Hazırda fəaliyyətdə olan laboratoriyalarımızın sayı 40-dan artıqdır.

Pandemiyanın mənfi təsirinin qarşısının alınması məqsədilə hökumət tərəfindən 2.5 milyard ABŞ dolları həcmində iqtisadi-sosial yardım və maliyyə dəstəyi paketi təqdim edilmişdir. Sosial yardım tədbirləri 5 milyon insanı əhatə edir ki, bu da ölkə əhalisinin yarısı deməkdir. Koronavirusla mübarizə heç bir xarici maliyyə dəstəyi olmadan, yalnız daxili mənbələr hesabına maliyyələşdirilmişdir.

Hazırda dünya pandemiyanın növbəti dalğası ilə üzləşib.

Pandemiya başlayandan bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır. Biz pandemiyanın ilk vaxtlarında dəyərli tövsiyələrinə və öz mütəxəssislərini ölkəmizə ezam etdiyinə görə təşkilata minnətdarıq. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına toplam 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi etmişik. Bununla yanaşı, bu günədək Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir.

Cənab Sədr, Azərbaycan pandemiya dövründə qlobal atəşkəslə bağlı BMT Baş katibinin təşəbbüsünü dəstəkləmişdir. Lakin həmin çağırış 30 ildən artıq Azərbaycan torpaqlarını işğal altında saxlayan və BMT Təhlükəsizlik Şurasının işğal olunmuş bütün ərazilərimizdən qoşunlarının çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayan Ermənistan tərəfindən eşidilməmişdir.

Son iki il ərzində Ermənistan danışıqlar prosesini məqsədyönlü şəkildə məhv etmişdir. Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” kimi bir sıra təxribatçı bəyanatları ilə danışıqlara son qoymuşdur. Ermənistanın müdafiə naziri “yeni ərazilər uğrunda yeni müharibə”yə çağırış etmişdir.

Cari ilin iyul ayında Ermənistan regionda yeni gərginlik mənbəyi yaratmaq, yeni əraziləri işğal etmək və Azərbaycanın strateji enerji infrastruktur layihələrinə zərbə vurmaq məqsədilə dövlət sərhədində hərbi təxribat törətmişdir.

Daha sonra avqust ayında Ermənistanın diversiya qrupu təmas xəttini keçməyə cəhd etmişdir.

Sentyabrın 24-də BMT Baş Assambleyasının ümumi müzakirələri çərçivəsində çıxışım zamanı mən Ermənistanın yeni müharibəyə hazırlaşması ilə bağlı xəbərdarlıq etmişdim.

Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi təxribata başlamışdır. Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən Tərtər və digər şəhərləri 44 gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qalmışdır. Ermənistan döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən və digər şəhərlərə qarşı ballistik raketlərdən istifadə etmişdir. Ermənistan azərbaycanlı mülki əhali arasında böyük sayda insan itkisinə səbəb olmaq və onları didərgin salmaq məqsədilə ağır artilleriya, ballistik raketlər, ağ fosfor və kasetli sursatlardan istifadə etmişdir. Nəticədə 11 nəfəri uşaq olmaqla, 94 mülki şəxs qətlə yetirilmiş, 400-dən artıq insan yaralanmışdır.

Azərbaycan Ordusu bunun layiqli cavabını vermiş, ölkə vətəndaşlarını və ərazisini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı başlamış və işğal olunmuş ərazilərin böyük bir hissəsini azad etmişdir. Hərbi əməliyyatlar zamanı qazanılmış Qələbə işğalçını təslim olmağa məcbur etmişdir. Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində Azərbaycanın işğal altında olan digər əraziləri də azad edilmişdir.

O vaxtdan etibarən, təqribən bir aydır ki, atəşkəsə əməl olunur. Atəşkəsə Nəzarət üzrə Birgə Monitorinq Mərkəzi vasitəsilə Türkiyə və Rusiya atəşkəsin təmin edilməsi işində vacib rol oynayır.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll edilmişdir. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Nəticədə təcavüzkar dövlət sülhə məcbur edilmişdir.

Bu, Ermənistanın destruktiv yanaşmasının yeganə nümunəsi olmamışdır. Ermənistan BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxış etmişdir. Ermənistan son dəqiqəyə qədər Xüsusi Sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır. Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur.

İnanıram ki, Xüsusi Sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir. Sağ olun.

# Azərbaycan Fransaya nota verib

Dekabrın 4-də Fransa Respublikasının Azərbaycan Respublikasındakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə səfirə dekabrın 3-də Fransa Milli Assambleyasında qəbul edilmiş “Avropa və Şərqin xristian icmaları və erməni xalqının qorunması” adlı qətnamə ilə əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin etiraz notası təqdim edilib.

Fransa səfirinin diqqətinə beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrinə zidd olan həmin sənədlə bağlı qəti etiraz çatdırılıb.

Fransa səfiri Azərbaycan XİN-in mövqeyinin rəsmi Parisin diqqətinə çatdırılacağını bildirib.

# Vətənin müqəddəs şəhidləri











Dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanında olub və şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoydular.

Azərbaycanın Dövlət himni səsləndirildi.

Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsinin qəhrəman şəhidlərinin əziz xatirəsi ölkəmizin hər yerində, məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiram hissi ilə yad edilib.

Allah şəhidlərimizə rəhmət eləsin!

# Azərbaycanın və Latviyanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Dekabrın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Latviyanın xarici işlər naziri Edqars Rinkeviç arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbəti zamanı nazirlər bölgədə mövcud olan son vəziyyət, 10 noyabr tarixli Birgə Bəyanatın icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər, həmçinin ölkələrimiz arasında mövcud olan ikitərəfli münasibətlərdən bəhs edib və çoxtərəfli formatlarda əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Eyni zamanda Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramında iştirakla bağlı məsələlər nəzərdən keçirilib.

Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli əməkdaşlıq münasibətləri müzakirə edilib

Dekabrın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Bolqarıstan Respublikasının Baş nazirinin ədliyyə islahatları üzrə müavini, xarici işlər naziri Yekaterina Zaxariyeva arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədəki son vəziyyəti, eləcə də noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatdan irəli gələn məsələlərin icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Bu razılaşmanın icrasının bölgədə dayanıqlı sülh, təhlükəsizlik və rifahın təmin edilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Nazirlər ikitərəfli əməkdaşlıq münasibətlərini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Belarus səfirinin Azərbaycandakı diplomatik fəaliyyəti başa çatır



Dekabrın 4-də xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının Azərbaycan Respublikasındakı səfiri Gennadi Axramoviçi diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov səfirin ölkəmizdə diplomatik fəaliyyətini yüksək dəyərləndirib, ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə təşəkkürünü bildirib və gələcək fəaliyyətində ona uğurlar arzulayıb. İki ölkə xalqlarını bağlayan tarixi və dostluq əlaqələrinə toxunan nazir Azərbaycan ilə Belarus arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluq ifadə edib. Nazir Ceyhun Bayramov Azərbaycan torpaqlarının Ermənistan işğalından azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsi haqqında qarşı tərəfi ətraflı məlumatlandırıb.

Səfir Gennadi Axramoviç ölkələrimiz arasında bütün sahələr üzrə əlaqələrin inkişafından məmnunluğunu bildirib, hətta COVID-19 pandemiyası dövründə belə iqtisadi əlaqələrdə artımın müşahidə edildiyini vurğulayıb. Səfir Azərbaycanı ən xoş arzularla tərk etdiyini bildirib və ölkəmizlə bağlı xoş təəssüratlarının daim xatirində olacağını qeyd edib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Azərbaycanın tarixi Qələbəsi - öz əzəli torpaqlarının azad olunması münasibətilə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) Katibliyi adından və şəxsən öz adımdan Sizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ərazi bütövlüyü beynəlxalq ictimaiyyət və müxtəlif platformalarda daim birmənalı şəkildə dəstəklənən Azərbaycanın BMT-nin qətnamələrini özü yerinə yetirməsi onun beynəlxalq hüququn prinsiplərinə hörmətinin parlaq nümunəsidir. Həmçinin TÜRK PA olaraq hərbi əməliyyatlar zamanı bir neçə dəfə Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyimizi verdiyimiz bəyanatlarda, xüsusilə Azərbaycan şəhərlərində mülki əhalinin raket atəşinə tutulmasını şiddətlə qınadığımızı bildirmişik. Eləcə də şəxsən mən və Katibliyin digər əməkdaşları atəşə məruz qalmış şəhərlərə səfərlər edərək raket hücumlarının nəticələri ilə yerində tanış olub, əldə etdiyimiz məlumatlar əsasında tərəfimizdən müvafiq hesabat hazırlanaraq əməkdaşlıq etdiyimiz 12 beynəlxalq parlamentlərarası təşkilata göndərilib.

Azərbaycanın zəfəri onun böyük hərbi və diplomatik uğurudur. Təbii ki, bu Qələbənin təməlində böyük zəhmət və yorulmaz fəaliyyət dayanır. Sizin rəhbərliyinizlə Azərbaycanda dövlət quruculuğu prosesi, iqtisadi durumun və sosial rifahın yaxşılaşdırılması, ölkənin hərbi gücünün artırılması, xalq həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər qazanılmış şanlı zəfərdə böyük paya malikdir. Tarixi ədalətin bərpa olunması Azərbaycan xalqının həmrəyliyini və dövlətinə dəstəyini bir daha nümayiş etdirdi. Məhz Sizin sərəncamınızla hər il noyabrın 8-nin Azərbaycanda Zəfər Günü kimi qeyd edilməsi qardaş Azərbaycan xalqı üçün müstəsna əhəmiyyətə malik bu bənzərsiz qələbəni əbədiləşdirəcəkdir.

Möhtərəm cənab Prezident, artıq uzun müddətdir öz torpaqlarında yaşamaq imkanından məhrum olan insanlar bu Qələbə nəticəsində doğma yurdlarına dönə biləcəklər. Əminəm ki, azad edilmiş torpaqlarda həyat yenidən dirçələcək və bölgə qısa zamanda regionun cəlbedici turizm istiqamətlərindən birinə çevriləcək. Həmçinin fürsətdən istifadə edərək təşkilatımızın yaxın gələcəkdə nəzərdə tutulan tədbirlərin bəzilərini azad edilmiş torpaqlarda həyata keçirməsi arzusunu da məmnuniyyətlə Sizə çatdırıram.

Böyük Zəfər münasibətilə Sizi bir daha təbrik edir, Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayır, zati-alinizə dərin hörmət və ehtiramımı izhar edirəm.

*Dərin hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Böyük Qələbə münasibətilə Sizi ABŞ və Kanadanın Buxara Yəhudiləri Konqresi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın işğal edilmiş 20 faiz ərazisi 30 ildən sonra azad edildi. Bu, Azərbaycanın ən yeni tarixində çox əlamətdar hadisə oldu. Bu hadisə Azərbaycan xalqının öz torpağında yaşamaq və işləmək niyyətini göstərdi. Ölkənizdə yüzdən çox millətin, o cümlədən yəhudi xalqının nümayəndələri - dağ, gürcü, rus yəhudiləri böyük bir ailə kimi yaşayır.

Bu Böyük Qələbə Sizin yorulmaz əməyiniz sayəsində uzun illər ərzində formalaşmış mükəmməl xarici siyasət və diplomatiyanın, sarsılmaz daxili harmoniyanın, həmçinin Azərbaycanın bütün əhalisinin birlik və bərabərliyinin nəticəsidir.

Hörmətli cənab Prezident, yorulmaz fəaliyyətiniz, böyük qətiyyətiniz ilə Siz nəinki müqəddəs torpaqlarınızın düşmən işğalından azad olunmasını təmin etmisiniz, həmçinin atanız, Azərbaycanın böyük oğlu Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş prinsiplərə sədaqəti sübuta yetirərək dünyada həqiqəti və ədaləti bərpa etmisiniz.

ABŞ və Kanadanın Buxara Yəhudiləri Konqresi 1999-cu ildə Nyu Yorkda yaradılmış və Şimali Amerikada yüzdən çox təşkilat və dini icmanı birləşdirən çoxprofilli təşkilatdır.

Uzun illərdir ki, biz ölkənizin Diasporla İş üzrə Dövlət Komitəsi və Mədəniyyət Nazirliyi ilə fəal əməkdaşlıq edərək Azərbaycan ilə ABŞ arasında xalq diplomatiyasının inkişafında iştirak edirik. Xüsusilə 2012-ci ildə Azərbaycanın Xalq artisti Zeynəb Xanlarovanın Nyu Yorkda qastrolları olub. 2020-ci ildə bizim icma, konqresimizin idarə heyətinin üzvləri Azərbaycanın parlament seçkilərində müstəqil ekspertləri kimi iştirak ediblər, Buxara yəhudiləri bir müddət Bakıda yaşayıb, onların bəziləri hətta yəhudi qəbiristanlığında dəfn olunublar.

Bizim xalqımız Azərbaycanın musiqi mədəniyyətinə, o cümlədən bəstəkar Üzeyir Hacıbəylinin, xanəndə Xan Şuşinskinin yaradıcılığına böyük sevgi ilə yanaşır. Kinodramaturq Rüstəm İbrahimbəyovun, rəssam Abbas Kazımovun, bəstəkar Qara Qarayevin, müğənni Rəşid Behbudovun əsərləri bizim üçün böyük dəyərdir.

2016-cı ildə Nyu Yorkda "İntibah" buxara-yəhudi teatrının səyləri ilə Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası səhnəyə qoyulub. Bizim şairimiz İlyas Mallayev təkcə tarçı-virtuoz deyil, o, həmçinin Füzuli dilində şeirlər yazıb. Müğənnilərimiz - Özbəkistanın Xalq artisti Məhəbbət Şamayeva, Tamara Katayeva ABŞ-da, Avstriyada, İsraildə və Kanadada böyük müvəffəqiyyətlə məşhur Azərbaycan mahnıları ifa edirlər. Azərbaycanın ictimai həyatı və mədəniyyəti, həmçinin onun qəhrəman övladlarının nailiyyətləri barədə doğru məlumatlar icmamızın "The Bukharian Times" qəzetində dərc edilir.

Zati-aliləri, cənab Ali Baş Komandan bir daha Sizi, qardaş Azərbaycan xalqını, şanlı Azərbaycan Ordusunun şəxsi heyətini tarixi Qələbə münasibətilə təbrik edirəm.

Azərbaycanın qələbəsi xəbərinin ölkənin Bayraq Gününə təsadüf etməsi rəmzi məna daşıyır. Qoy, Azərbaycanın üçrəngli bayrağı bütün regionda sülhün dayağı olmuş müstəqil, güclü, qonaqpərvər və səmimi, multietnik və çoxkonfessional Azərbaycanın bütün ərazisində daim dalğalansın!

*Hörmətlə,*

***Boris KANDOV,***
***ABŞ və Kanadanın Buxara Yəhudiləri Konqresinin prezidenti***

## *Sahibə QAFAROVA:* "Şəhidlərimizin ruhu qarşısında baş əyir, ehtiramla yad edirik"

"Allah bütün şəhidlərimizə rəhmət eləsin, bütün qazilərimizə şəfa versin. Şəhidlərimizin ruhu qarşısında baş əyir, ehtiramla yad edirik".



AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova özünün "Twitter" səhifəsində şəhidlərimizlə bağlı paylaşımında yazıb.

## Nüfuzlu "China Daily" qəzeti Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının Xüsusi Sessiyasındakı çıxışından yazır

Nüfuzlu "China Daily" qəzeti Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasını diqqətdə saxlayıb.

AZƏRTAC xəbər verir ki, qəzet Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 3-də Qoşulmama Hərəkatının Sədri qismində sessiyada videoformatda çıxışından bəhs edib. "China Daily" Prezident İlham Əliyevin "Qoşulmama Hərəkatı bütün ölkələrin dərman, vaksin və tibbi avadanlığa münasib, maneəsiz və bərabər çıxışının əhəmiyyətini vurğulayır" fikrini qeyd edərək yazır ki, bu, COVID-19-a qarşı əlaqəli səmərəli mübarizənin tərkib hissəsi olmalıdır.

Nəşr yazır: "Əliyev ümidvar olduğunu bildirib ki, COVID-19-a qarşı vaksinin hamı üçün münasib qiymətə paylanılması təmin ediləcək. Pandemiya ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurmuşdur. Qoşulmama Hərəkatı böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağından və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağından dərin narahatlıq keçirir".

Qeyd edək ki, Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci il mayın 4-də koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə Prezident İlham Əliyev BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif edib. Qoşulmama Hərəkatının bütün 120 üzvü həmin təklifi dəstəkləyib. Ümumilikdə BMT-nin 150-dən çox üzv dövləti həmin təşəbbüsü dəstəkləyib. Beynəlxalq və regional əməkdaşlığa dırnaqarası yanaşan Ermənistan isə BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxış edib. Rəsmi İrəvan son anadək xüsusi sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışıb. Dövlətimizin başçısının vurğuladığı kimi, beynəlxalq münasibətlərin subyekti yox, obyekti olan Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olub.

## *Əli ƏHMƏDOV:* "Fransa Milli Assambleyası Senatın səhvini və günahını təkrar edir"

"Fransa Senatının ardınca bu ölkənin parlamentinin aşağı palatası olan Milli Assambleyanın dekabr ayının 3-də "Erməni xalqının və Avropa və Şərqin xristian icmalarının müdafiəsi" adlı qətnamə qəbul etməsi mübaliğəsiz olaraq siyasi riyakarlığın bariz ifadəsi sayıla bilər. Qətnamənin əsas mövzusu ilə əlaqədar şərhlərdən əvvəl onu vurğulamaq yerinə düşər ki, Fransa hökumətinin məscidlərə və müsəlman icmalarına qarşı total təzyiqlərinin həyata keçirdiyi bir zamanda Milli Assambleyanın Avropada və Şərqdə xristian icmalarının müdafiə edilməsi barədə "həyəcan təbili" çalması heç bir sağlam məntiqə sığmır. Fransanın artıq bir neçə ildir Avropada milli və irqi dözümsüzlüyün, islamofobiyanın mərkəzinə çevrilməsi nəinki islam dünyası, eləcə də xristian ölkələrini narahat etməyə başlayıb. Ona görə də bu ölkənin dünyada xristianların müdafiəsi ilə əlaqədar çağırışları qədər əslində antixristian təbliğatı təsəvvür etmək mümkün deyil".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov özünün rəsmi "Facebook" səhifəsində bildirib.



Baş nazirin müavini qeyd edib ki, Milli Assambleyanın qəbul etdiyi qətnamə noyabr ayının 25-də Fransa Senatının qəbul etdiyi qətnamənin əsassız, qeyri-obyektiv və ziyanlı iddialarını təkrar edir və yenidən Fransa hökumətinə Dağlıq Qarabağın tanınması kimi təxribatçı təklif ünvanlayıb: "Senatın qəbul etdiyi məsuliyyətsiz və məsuliyyətsiz olduğu qədər də ziyanlı qətnamə ilə əlaqədar Azərbaycan cəmiyyəti, Milli Məclis, hökumət, siyasi partiyalar və qeyri-hökumət təşkilatları əsaslı mövqelərini bildirdiyindən onları yenidən təkrar etməyə ehtiyac yoxdur. Lakin diqqəti çəkən məqam Senatın məlum tövsiyəsinə cavab olaraq Dağlıq Qarabağın tanınmasının mümkün olmaması barədə Fransa hökumətinin öz mövqeyini elan etməsindən sonra Milli Assambleyanın yenidən hökumətə bu qondarma, artıq formal şəkildə də mövcud olmayan qurumu tanımağı tövsiyə etməsidir. Doğrudur, parlament müzakirələrində ölkənin xarici işlər naziri Jan İv Le Duran qondarma Dağlıq Qarabağın tanınmasının mümkün olmadığını bəyan edib. Lakin görünən budur ki, hökumətin "qəti" mövqeyi parlamentariləri inandırmayıb. Lakin bu faktın özünün nə qədər inandırıcı olması sual doğurur. Fransanın Milli Assambleyasının 577 üzvünün yarıdan çoxu, təxminən 60%-i, Prezident Makronun "İrəli, Fransa" partiyasına və onun müttəfiqi "Demokratik hərəkat" partiyasına mənsubdur. Məlum qətnaməyə müxalifət partiyalarla bərabər, hakim partiya və onun müttəfiqləri də səs verib. Qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına hökumətin razılıq vermədiyi məlum olduğu halda, prezidentin partiyasının nümayəndələrinin yenidən eyni tövsiyəni irəli sürməsi təəccüblü görünməyə bilməz. Milli Assambleyanın Senatın məsuliyyətsiz və ziyanlı, eynilə də perspektivsiz səhvini və günahını təkrar etməsi nəyin ifadəsidir: Makronun partiyasının ona itaətsizliyinin, erməniləri Makrondan və onun hakimiyyətindən çox sevməsinin, yoxsa anti-Azərbaycan, anti-Türkiyə mövqeyinin ədalət, humanizm, obyektivlik kimi dəyər və prinsiplərdən üstün tutulmasının?"

"Senatın qətnaməsi kimi, Milli Assambleyanın qətnaməsi də hüquqi qüvvəyə malik deyil və qondarma, artıq əslində, mövcud olmayan "Dağlıq Qarabağ respublikası"nın tanınması baxımından hər hansı perspektivdən məhrumdur. Lakin bu qətnamənin Azərbaycana və qardaş Türkiyəyə dost olmayan münasibətinin ifadəsi kimi diqqətdən kənarda qalması da yolverilməzdir. İndi dostların və dost olmayanların tanınması zamanıdır", - deyə Əli Əhmədov qeyd edib.

## Azərbaycan və Ukrayna parlamentlərarası dostluq qruplarının onlayn görüşü olub

Dekabrın 3-də Azərbaycan-Ukrayna və Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında videokonfrans formatında görüş olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev, qrupun üzvləri Vüqar İsgəndərov, Müşfiq Cəfərov, Naqif Həmzəyev, Elman Nəsirov, Əminə Ağazadə, Cavid Osmanov, Anar Məmmədov, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədrləri Valeriy Kolyux, Vladimir Kreydenko, Ukraynanın ölkəmizdəki səfiri Vladislav Kanevski, ölkəmizin Ukraynadakı səfirliyinin nümayəndəsi Vüsal Süleymanov, Ukraynada Azərbaycan diasporunun rəhbəri Hikmət Cavadov və digər şəxslər iştirak ediblər.

Çıxış edən Valeriy Kolyux bildirib ki, Ukrayna parlamentində Azərbaycanla işçi qrupu ən böyük qruplardan biridir, 50-dən çox üzvü var. Qrup böyük olduğuna görə onun iki həmsədri var.

Sonra Vladimir Kreydenko çıxış edərək diqqətə çatdırıb ki, Ukrayna həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bundan sonra da dəstəkləyəcək. Hər iki həmsədr Azərbaycanı öz ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrik ediblər. Həmsədrlər işğaldan azad edilmiş Azərbaycan ərazilərində tezliklə iqtisadi inkişafın və infrastrukturun qurulmasının təmin ediləcəyinə əminliklərini ifadə ediblər. Qeyd olunub ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmətə və etimada əsaslanır.

Rüfət Quliyev Milli Məclisin rəhbərliyi adından ölkəmizin ərazi bütövlüyünün bərpasında birmənalı olaraq Azərbaycanı yüksək səviyyədə dəstəklədiyinə görə Ukrayna dövlətinə və xalqına təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, bu müharibədə beynəlxalq hüquq və ədalət bizim tərəfimizdə idi və biz qalib gəldik. Azərbaycan və Ukrayna strateji tərəfdaş ölkələrdir və prezidentlərimizin sayəsində bu münasibətlər yeni səviyyəyə yüksəlib. Hazırda Ukraynada 500 mindən artıq azərbaycanlı yaşayır. Çoxlu sayda azərbaycanlı gənc Ukraynanın müxtəlif ali məktəblərində təhsil alır.

Sonra onlayn görüşdə parlamentlərarası əlaqələrin inkişafı, qarşılıqlı ticarət dövriyyəsinin artırılması, birbaşa aviareyslərin bərpası, investisiyaların təşviqi, kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

## *Dmitri PESKOV:* "Qarabağın Azərbaycana mənsubluğu BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə müəyyən edilib"

Dağlıq Qarabağın Azərbaycana mənsubluğu BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə müəyyən edilib. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.



O, müharibədən və Azərbaycan, Ermənistan, Rusiya liderlərinin imzaladığı razılaşmadan sonra Qarabağın statusu barədə məsələyə Rusiyanın münasibətinin dəyişib-dəyişməyəcəyinə dair sualı cavablandıraraq deyib: "Bu ərazilərin mənsubluğu Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə kifayət qədər çoxdan müəyyən edilib. Bunların hamısı Təhlükəsizlik Şurasının qətnaməsində göstərilib. Rusiya və əslində heç bir ölkə heç nəyi dəyişməyib. Prezident Putin deyib ki, Qarabağın müstəqilliyi tanınmayıb, o, hətta Ermənistanın özü tərəfindən belə tanınmayıb, bu barədə Prezident Putin deyib".

Kremlin rəsmi nümayəndəsi əlavə edib ki, rusiyalı hərbçilər, həmçinin Qarabağda Rusiyanın humanitar missiyası öz fəaliyyətlərini həm azərbaycanlılar, həm də ermənilər ilə əlaqələndirirlər.

## Fransa Milli Assambleyasının qətnaməsi ölkə parlamentinin növbəti təxribatçı fəaliyyətindən xəbər verir

Fransa Milli Assambleyasının "Erməni xalqının və Avropa və Şərqin xristian icmalarının qorunması" adlı qətnaməni qəbul etməsi Fransa parlamentinin növbəti tamamilə əsassız, qeyri-dost və təxribatçı fəaliyyətidir. Senatın ardınca Aşağı Palatanın qərəzli qətnamə qəbul etməsi Azərbaycana qarşı aparılan davamlı kampaniyadan xəbər verir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Qətnamənin adından da göründüyü kimi, reallıqla heç bir əlaqəsi olmayan, məsələyə dini çalarlar qatmaq istəyən Milli Assambleya üzvləri ermənipərəst mövqelərini süni əsaslandırma ilə təqdim etməyə çalışır. Azərbaycan müxtəlif dini etiqad və etnik mənsubiyyətə malik insanların harmoniya və sülh şəraitində bir ailə kimi yaşadığı çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Biz Ermənistan-Azərbaycan münaqişəsini dinlərarası və sivilizasiyalararası toqquşma kimi qələmə vermək cəhdlərini rədd edir, sülh və təhlükəsizlik üçün ciddi təhdid olan bu cür yanaşmanı qətiyyətlə pisləyirik.

Bu qətnamənin hüquqi qüvvəsi yoxdur. Lakin Senatın halında olduğu kimi, Milli Assambleyanın sənədinin siyasi mənasını nəzərə alaraq, bu kökündən yanlış qətnamələrin beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi və Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələri, eləcə də Azərbaycan ilə Fransa arasında mövcud olan ikitərəfli sənədlər ilə ziddiyyət təşkil etdiyini vurğulamaq istərdik.

Fransa qanunverici orqanının bu addımı ölkənin vasitəçi mandatına ciddi zərbə vurur, eləcə də ikitərəfli münasibətlərə kölgə salır.

Onu da vurğulamaq lazımdır ki, Fransa Milli Assambleyası bu günədək etnik təmizləməyə məruz qalan və fundamental insan hüquqları pozulan bir milyon azərbaycanlı haqqında bir dəfə də olsun dinləmə keçirməyib və hər hansı qətnamə qəbul etməyib. Bu isə Fransa qanunverici orqanının tam qərəzli mövqe tutduğunu açıq şəkildə nümayiş etdirir.

Milli Assambleya tərəfindən Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəaları ilə tam ziddiyyət təşkil edən yanaşmanın sərgilənməsi həm bölgədə, həm də qlobal səviyyədə sülh və təhlükəsizliyin təmin edilməsi səylərinə ciddi xələl gətirir.

Qeyd etmək istərdik ki, Milli Assambleyanın əsassız və qərəzli qətnamə qəbul etməsi ilə bağlı Fransanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılacaq və Azərbaycan tərəfinin qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılacaq".

## *Jan-Lük REİTZER:* "Milli Assambleyada qətnamənin əleyhinə olan deputatlara söz verilmədi, yalnız yalanlar səsləndirildi"

Fransa Milli Assambleyasında "Avropada və Şərqdə erməni xalqının və xristian icmalarının müdafiəsinə dair qətnamə layihəsi" üzrə debatlarda çıxış üçün yalnız bu sənədin lehinə olan deputatlara söz verildi. Qətnamənin əleyhinə olan deputatlara söz verilmədi. Heç bir dəyəri, heç bir hüquqi əhəmiyyəti olmayan, yalnız rəmzi xarakter daşıyan bu qətnamə layihəsinin əleyhinə səs verdim.

Bu sözləri Fransa Milli Assambleyasının deputatı Jan-Lük Reitzer Assambleyada "Avropada və Şərqdə erməni xalqının və xristian icmalarının müdafiəsinə dair qətnamə layihəsi" adlı sənədin debatları ilə bağlı AZƏRTAC-a müsahibəsində deyib.

Deputat bildirib ki, layihə ilə bağlı çıxışçılar siyasi qruplar tərəfindən təyin edilirdi. Mən çıxış üçün vaxt istədim, ancaq mənə söz verilmədi. Parisdən olan deputat Brijit Kulster qətnamənin mətni ilə bağlı izahat verdi, onun çox sayda erməni seçiciləri var.

Mənə isə çıxış üçün söz vermədilər. Çünki mən həmin sənədin əleyhinə olanlardan idim. Bu, böyük səhvdir. Fransa Minsk qrupunun həmsədridir, o, öhdəsinə götürdüyü vasitəçi roluna uyğun olaraq bitərəf olmalı idi, ancaq aydın şəkildə Ermənistana tərəfkeşlik etdi. İndi Fransanın hansısa rol oynayacağını görmürəm.

Qeyd edib ki, xarici işlər naziri Jan-İv lö Dryan fikrini çox aydın ifadə etdi. O, açıq şəkildə mövqeyini bildirdi. Düzdür, o, "ermənilərin faciəsini bölüşürəm" dedi, ancaq deputatlarla müqayisədə daha balanslı danışdı, Fransanın bitərəf qalmaq istəyini qeyd etdi.

"Deputatlar təzyiq altındadırlar, onlar düz danışmadılar. Xarici işlər komissiyasının iclasında onlara Bakıda erməni kilsəsi olmasından, onun dövlət hesabına bərpa edilməsindən, oradakı kitabların qorunub saxlanmasından danışdım. Ancaq həqiqəti eşitməzliyə vurdular", - deyə Jan-Lük Reitzer diqqətə çatdırıb.

Vurğulayıb ki, qətnamə layihəsi ilə bağlı debatlarda diqqət çəkən əsas məqam Türkiyə idi. Debatlarda çıxış edənlər yalnız Türkiyənin adını çəkirdilər, hamı Türkiyədən danışırdı.

Mən həmkarlarımla danışanda dəfələrlə qeyd etmişəm ki, Azərbaycan dünyəvi ölkədir, bu ölkədə dini münaqişə yoxdur. Bütün dinlərə hörmətlə yanaşılır. Həmkarlarıma deyirəm, mənimlə Azərbaycana gəlin və reallığı öz gözlərinizlə görün, söylənilənlərə inanmayın. İllərdir reallığın saxtalaşdırılması son günlərin faciəvi nəticələrinə səbəb olub.

# İlham Əliyevin zəfəri

## Bu möhtəşəm qələbə bütün dünya üçün əhəmiyyətlidir

*Əvvəli 1-ci səh.*

Bu, sadəcə bəyanat deyil, həm də Ermənistanın müharibədə rüsvayçı hərbi təslim aktıdır. Nə üçün? Çünki hərbi əməliyyatların başladığı ilk gündən cənab Prezident İlham Əliyev Ermənistan qarşısında tək bir şərt, bir tələb irəli sürmüşdü. Bildirmişdi ki,Ermənistanın xarici işlər naziri, müdafiə naziri və ya başqa kimsə deyil, şəxsən baş nazir Nikol Paşinyan işğalçı qoşunların nə zaman çıxarılacağına dair qəti fikrini bildirdikdən və konkret cədvəl verdikdən sonra hərbi əməliyyatlar dayandırılcaq.

Nəticəsi nə oldu? Bir neçə ay əvvəl Azərbaycan qarşısında 7 şərt irəli sürən Nikol Paşinyan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin yeganə şərtini qəbul etməyə və onun müzəffər komandan çəkmələrinin qarşısında ikiqat diz çökərək hərbi təslim aktını imzalamağa məcbur oldu. Bu imzalanan təslim aktının təkcə Azərbaycan deyil, həm də bütün dünya üçün əhəmiyyəti var. Həmin əhəmiyyət nədən ibarətdir?

### Qələbə Azərbaycana nə verdi?

Müharibədə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin başlıca məqsədi işğal altında qalan torpaqları azad etmək idi. 44 günlük müharibə nəticəsində Azərbaycan dövləti niyyətinə nail oldu. Qəhrəman Azərbaycan əsgərlərinin, gizir və zabitlərinin şücaəti sayəsində düşmən yenildi. Vətən torpağı heç bir zaman ölməyəcək, millətimiz və dövlətimiz əbədi mövcud olduqca yaşayacaq şəhid qanları ilə suvarıldı. Azərbaycan Respublikası, ordusu və xalqı bu müharibədən qalib çıxdı. Ermənistan hərb meydanında rüsvayçı məğlub edildi. Dünyanın 50 qabaqcıl ölkəsinin orduları cərgəsində yer tutan Azərbaycan Ordusu "yenilməz Ermənistan ordusu" mifini darmadağın etdi. Bu gün Ermənistan ordusu artıq demək olar ki, yoxdur. Gəbərənləri döyüş meydanında qaldı, 10 mindən yuxarı əsgər və zabit isə fərarilik edərək qaçıb getdi. Azərbaycan Ordusu düşmənin külli miqdarda döyüş texnikası və sursatını qənimət olaraq ələ keçirməklə təkcə İrəvanı deyil, illər boyu Ermənistanı silahlandıranların da ümidlərini darmadağın etdi.

Ali Baş Komandan İlham Əliyev hər bir azərbaycanlının qəlbində xüsusi milli-mənəvi yeri olan Şuşanın azad edilməsi ilə bütün Qarabağı Azərbaycana qaytardı. Tarixən belə deyilib: Şuşa Qarabağın açarıdır, Şuşa kimdədirsə, Qarabağ da ondadır. Ümummilli Lider Heydər Əliyev deyirdi ki, Şuşasız Azərbaycan yoxdur. Şuşanın işğaldan azad edilməsi və yenidən qovuşması Azərbaycanın varlığı, inkişafı və daha güclü dövlət olması deməkdir. Prezident İlham Əliyev Azərbaycan üzüyünün qaşı olan Şuşanı qaytarıb yerinə qoymaqla tariximizdə mümkün olmayanı mümkün etdi, yuxularımızı, xəyallarımızı gerçəkləşdirdi. Hərbi əməliyyatların əvvəllərində bədxahlarımız yazırdılar ki, guya döyüşü pualar, dronlar udur. Şuşa şəhərində küçə döyüşlərində Azərbaycan əsgəri dünya hərb tarixində qızıl səhifələr yazdı. Bu səhifənin öyrənilməsi üçün hələ uzun illər lazım gələcək.

Minilliklər tariximizdə Prezident İlham Əliyev bir çox ilklərə imza atdığı kimi, bu savaşda da bir ilk yaratdı. Son bir neçə yüzilliklər tariximizdə ilk dəfə olaraq işğal altında olan torpaqlar güclü ordu sayəsində azad edildi. Qazandığı qələbə ilə Prezident İlham Əliyev Azərbaycan xalqını məğlub xalqdan qalib xalqa çevirdi, millətin başını uca etdi, əyilmiş qamətini, belini düzəltdi, başını dik etdi, özünə inam, güvən yaratdı, gələcək nəsillərə örnək verdi. Hələ ötən əsrin 80-ci illərində xarici tarixçilər yazırdılar ki, Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal olunduqdan sonra azərbaycanlılar daim sındırılmış, özlərinə inamsız halda Bakı küçələrində gəzirdilər. XX əsrdə yalnız iki dəfə azərbaycanlılar Bakı küçələrində başlarını dik tutaraq gəziblər: birinci dəfə 1918-ci ildə Azərbaycan və Osmanlı hərbi hissələrindən ibarət qurulmuş Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhəri yadelli qüvvələrdən azad edildikdən sonra; ikinci dəfə isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyev 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd seçildikdən, 1982-ci ildə isə Siyasi Büro üzvü seçildikdən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra.

44 günlük müharibə nəticəsində Azərbaycan xalqı bilavasitə Prezident İlham Əliyevin müdrik dövlət rəhbərliyi, planetar təfəkkürü, strateqliyi, diplomatik-siyasi ustalığı və sərkərdəlik məharəti nəticəsində son 200 ildə üçüncü dəfə, XXI əsrdə isə birinci dəfə təkcə Bakı küçələrində, ölkəmizdə deyil, dünyanın hər bir yerində başını dik tutaraq, özünə güvənərək qalib millət kimi qürur hissi ilə addımlayır. Prezident İlham Əliyev Azərbaycan xalqı və dövləti üzərində olan 30 illik ləkəni silib atmaqla azərbaycanlıları yenidən qalib doğulmuş bir millət etdi. Millətimiz və dövlətimiz mövcud olduqca qalacaq bu böyük əsərin memarı Prezident İlham Əliyevdir.



Azərbaycan təkcə hərb meydanında qələbə qazanmadı. Qazanılan qələbə Azərbaycan iqtisadiyyatının Ermənistan iqtisadiyyatı üzərində tarixi qələbəsi oldu. Qələbə Prezident İlham Əliyevin daim söylədiyi bir tezisin nəinki indiki şəraitdə düzgün olduğunu təsdiq etdi, eyni zamanda, millətimizin gələcək nəsilləri üçün də bir örnək oldu. O da ondan ibarətdir ki, biz iqtisadi cəhətdən müstəqil, güclü olmasaq, heç bir vəzifəni yerinə yetirə bilmərik. Məhz Prezident İlham Əliyevin yaratdığı iqtisadi cəhətdən güclü Azərbaycan müharibədə qalib gəldi. Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75 faizini təşkil edən Azərbaycan iqtisadiyyatı qarşısında Ermənistan heç bir zaman tab gətirə bilməzdi və tab gətirmədi də!

Qələbənin dünya bazarlarında neftin qiymətinin aşağı düşdüyü, koronavirusun tüğyan etdiyi ağır bir şəraitdə qazanılması Prezident İlham Əliyevin uzun illərdən bəri yürütdüyü iqtisadi strategiyanın düzgünlüyünü bir daha təsdiq etdi. Ordunun bütün təchizatı dəqiq saat mexanizmi kimi təmin edildi.

Ermənistanda isə "könüllü" adı altında cəbhəyə zorla adam yığarkən "varınızdırsa, özünüzlə hərbi geyim, çəkmə gətirin" xahişləri edən, əsgərini yeməklə təmin edə bilməyən bir ölkənin qüdrətli Azərbaycan iqtisadiyyatı qarşısında diz çökməsi təbii idi. Ermənistan resurs müharibəsinə hazır deyildi və ola da bilməzdi. Ona görə də baş verən məğlubiyyət qaçılmaz idi. Və gözlənilən də baş verdi!

Qazanılan qələbə Azərbaycan hərbi-sənaye kompleksinin, müasir texnologiyasının Ermənistan üzərində zəfəri idi. Son illərdə dövlət büdcəsində hərbi xərclərin daim artırılması, ordu quruculuğuna xüsusi diqqətin yetirilməsi, yeni texnologiyaların işlənilməsi və tətbiqi, səmərəli beynəlxalq əməkdaşlıq Azərbaycanda inkişaf etmiş hərbi-sənaye kompleksinin qurulmasına gətirib çıxardı. Nəticəsi də məlumdur: müasir hərbi-sənaye kompleksinin məhsulları döyüş meydanında düşmən üzərində hakim oldu və gözünü açmağa imkan vermədi.

Bu qələbə Azərbaycan hərb mütəxəssislərinin və azərbaycanlı zəkasının Ermənistan hərbi mütəxəssisləri və "intellekti" üzərində parlaq qələbəsi oldu. Müasir silahları idarə edən Azərbaycan mütəxəssislərinin biliyi, bacarığı və zəkası əzici üstünlüyünü təsdiq etdi. Həmin azərbaycanlı mütəxəssislər öz-özündən yaranmayıb, bilavasitə Prezident İlham Əliyevin liderliyində yürüdülən dövlət siyasəti nəticəsində yetişiblər.

Qazanılan qələbə dövlət və millət, milli-mənəvi birliyimizin qələbəsi oldu. Əgər millət Prezident İlham Əliyevə güvənməsəydi, yürütdüyü siyasət nəticəsində dövlət hakimiyyəti və millət arasında sıx birlik və yekdillik yaradıla və deməli, qələbə də qazanıla bilməzdi. Yalnız güclü dövlət və güclü lider hər şeyə qadirdir. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən qurulan güclü Azərbaycan Respublikası dövlətini yeni şəraitə uyğun olaraq müasirləşdirərək qələbəni təmin etdi. Ən çətin və mürəkkəb şəraitdə bizi qələbəyə gətirən millət və dövlət birliyimizin baş memarı məhz Prezident İlham Əliyevin sarsılmaq iradəsi, qətiyyəti oldu.

Bu qələbə Prezident İlham Əliyevin rəhbərliyi altında səmərəli və çevik dövlət idarəçilik sisteminin qələbəsidir. Son illərdə aparılan islahatların uğurla nəticələnməsi müharibədə zəfəri şərtləndirən amillərdən biri oldu. Bir daha təsdiq edildi ki, yalnız çevik və səmərəli idarəçilik dövlət və millətin qələbəsinin başlıca şərtlərindən biridir.

Qazanılan qələbə Prezident İlham Əliyevin hakimiyyəti illərində formalaşdırdğı yaradıcı, dinamik, enerjili, yüksək milli ruhlu Azərbaycan cəmiyyətinin kin, küdurət, qısqanclıq hissləri içərisində boğulan və yaradıcılığın nə olduğunu bilməyən erməni cəmiyyəti üzərində öldürücü qələbəsidir. Müharibənin yekunu göstərir ki, əgər erməni cəmiyyəti başına gələndən düzgün nəticə çıxarmasa, düşdüyü ağır bataqlıqdan ya tamamilə çıxa bilməyib məhv olacaq, ya da hələ çoxlu onilliklər bundan sonra da onun içərisində çabalamalı olacaqdır.

Prezident İlham Əliyev təkcə hərb meydanında qazanılan qələbənin baş memarı deyil, eyni zamanda, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin gedişində blokdaya salınmış Naxçıvana gedən yolun tikintisinə dair maddənin üçtərəfli bəyanata daxil edilməsinə nail olmaqla həm bu regionun problemini həll edən, həm də bütövlükdə daha genişmiqyaslı geoiqtisadi layihənin icrasına imkan yaratmış zəmanəmizin görkəmli strateqi, dövlət və siyasi xadimidir. Həmin maddədə nəzərdə tutulanların yerinə yetirilməsilə Naxçıvanın blokadasına son qoyulacaq, İğdır - Naxçıvan dəmir yolunun tikintisi ilə Azərbaycan Türkiyə üzərindən Avropaya çıxa, eyni zamanda, Fars körfəzinə enə biləcək, Naxçıvan dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzinə çevriləcək, Türkiyənin türk dünyası ilə quru əlaqəsi qurulacaq. Bu yol Rusiyaya Azərbaycan və Türkiyə üzərindən Avropaya çıxmağa imkan verəcək, beləliklə, regionda iqtisadi əməkdaşlıq canlanacaq.

Prezident İlham Əliyev təkcə hərb meydanında deyil, diplomatik-siyasi sahədə də ustalıqla və böyük məharətlə qələbə qazanaraq zəmanəmizin görkəmli diplomatı olduğunu təsdiq etdi. Məlum olduğu kimi, müharibənin aparılması üçün ya əlverişli beynəlxalq şərait yaradılmalıdır, ya da ondan istifadə edilməlidir. Azərbaycan dövləti uzun illər boyu apardığı gərgin iş və yürütdüyü siyasət ilə əlverişli beynəlxalq şərait yaratmağa nail oldu. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü, Qoşulmama Hərəkatına sədrlik, Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli formatda əməkdaşlığının səmərəliliyi 44 gündə öz bəhrəsini verdi. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ərazisidir" deyərək müharibədə haqq-ədalətin yanında oldu. İran İslam Respublikası və Gürcüstan da eyni mövqe tutaraq sərhədləri işğalçı ölkəyə silah daşınması üçün bağladılar. Bu siyasət Prezident İlham Əliyevin daim xüsusi diqqət yetirdiyi "bizim üçün qonşularla yaxşı münasibətlər başlıca məqsəddir" tezisinin təkcə indiyə qədər əhəmiyyətli olduğunu təsdiq etmədi, eyni zamanda, gələcək üçün bir model yaratdı.

Müharibə başa çatıb və təbii ki, Azərbaycana qarşı müharibə cinayətləri törədərək vurduğu ziyanlara görə işğalçı ölkə Ermənistan təzminat ödəməlidir. 30 il ərzində İrəvan Azərbaycan ərazilərini, şəhər, kənd və qəsəbələri dağıdıb, təbii sərvətləri talayıb sataraq gəlirlər əldə edib, hərbi əməliyyatların gedişindən uzaqda yerləşən Gəncə və Bərdədə, eyni zamanda, Tərtər və başqa rayonlarda mülki əhalini qətlə yetirib, soyqırımı törədib və mülki infrastruktura ağır ziyan vurub. Azərbaycan hökuməti 30 il ərzində məcburi köçkünlərin saxlanılması üçün külli miqdarda vəsait xərcləyib, torpaqları azad etməkdən ötrü apardığı müharibədə məsrəflər çəkib. Ermənistan yüz minlərlə azərbaycanlıya mənəvi ziyan vurub. Təzminat davasının açılması, Ermənistanın boynuna boyunduğuruğun salınması təkcə haqq-ədalətin bərpası, beynəlxalq hüquq baxımından deyil, həm də gələcək nəsillər üçün lazımdır.



Bəs bundan sonra cəmiyyət olaraq bizim davranışımız necə olmalıdır? Bizi bu qələbəyə Prezident İlham Əliyevin inamı, imanı, sarsılmaz iradəsi, qətiyyəti, millətə güvənməsi, planetar təfəkkürü, dərin zəkası, uğurlu diplomatik-siyasi fəaliyyəti gətirdiyi üçün bundan sonra da bütün Azərbaycan cəmiyyəti üçün əsas deviz yalnız dövlət başçısının sözü, rəyi olmalıdır. Bütün millətin bir səsinin olması vacibdir.

### Qələbənin dünya üçün əhəmiyyəti nədir?

44 günlük müharibədə Prezident İlham Əliyev təkcə Azərbaycanı qalib etmədi, eyni zamanda, müasir dünya siyasətində həllini gözləyən bir sıra məsələləri uğurla həll etdi. Hər şeydən əvvəl, Azərbaycan Respublikası dövləti bu qələbəsi ilə BMT Təhlükəszilik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirərək dünya müdiriyyəti adlandırılan bu təşkilatın nüfuzunu, ona olan inamı bərpa etdi.

Ermənistan təkcə hərb meydanında məğlub edilmədi, Prezident İlham Əliyev dünyanın məşhur KİV-inə verdiyi müsahibələri ilə bir neçə yüz il boyunca dünyanı aldadan uydurma erməni təbliğatını təkbaşına darmadağın etdi. Yüz milyonlarla insan erməni yalanlarını başa düşdü. Dünya erməni faşizminin içi üzünü gördü. Bir daha məlum oldu ki, erməni faşizmi nasizmdən daha qəddar və iyrəncdir.

Ermənistanın müharibənin əvvəlindən xristianların dini hisslərini istismar edərək baş verənləri xristianlıq əleyhinə olan kimi qələmə verməyə çalışması cəhdləri də puça çıxdı. Hamıya məlumdur ki, artıq uzun illərdir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Bakıda mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoq, humanitar forumlar keçirilir. Dünya Azərbaycanda müxtəlif dini inanclı insanların birgə yaşayışının, məscidlərin, kilsələrin və sinaqoqların yanaşı fəaliyyət göstərməsinin şahidi olur. Bakıda erməni kilsəsi dövlət tərəfindən qorunur. Bir neçə il əvvəl erməni qəbiristanlığının yeri dəyişdirilərkən hökumətin müraciəti əsasında ermənilər ya ölülərinin sümüklərini apardılar, aparıla bilməyənləri isə dövlət hesabına digər yerdə dəfn edildi. Heydər Əliyev Fondu Vatikanda, Parisdə və başqa şəhərlərdə kilsələri, Hun imperatoru Atilla ilə Roma Papasının görüşünü əks etdirən freskanı təmir etdirdi. Bütün bunlar Azərbaycanın siyasətinin əyani təzahürüdür. Bəs Ermənistan hansı siyasəti yürüdüb və yürüdür? Bu gün Ermənistanda məscidlər, müsəlman qəbiristanlıqları tamamilə dağıdılıb. Ermənistan işğal etdiyi ərazilərdə məscidləri donuz, mal-qara tövləsinə çevirmişdi. Ayaqqabı ilə girilməyən Allahın evinə belə münasibətin yalnız bir adı vardır: vəhşi icma, qəbilə təfəkkürü! Əslində Ermənistan bu barbar hərəkətləri ilə sülh dini olan xristianlığa və xristianlara daim ləkə gətirdiyini bir daha təsdiq etdi.

44 günlük müharibənin gedişində Ermənistan təbliğatının guya "ikinci erməni soyqırımı" törədiləcək iddialarının da əsassız olduğu təsdiq edildi, bu cəfəngiyat da sabun köpüyü kimi partladı. Axı, Azərbaycan dövləti "soyqırımı" həyata keçirsəydi, Bakıda bir neçə min nəfər erməni necə yaşaya bilərdi? Hətta Xankəndiyə daxil olmaq an məsələsi olsa da, Azərbaycan Ordusu bunu etmədi.

Ermənistanın "turançılıq", "pantürkizm" və "yeni osmançılıq" barədə uydurmaları da darmadağın edildi. Azərbaycanın haqq işinin Türkiyə tərəfindən müdafiə edilməsinin ermənilər tərəfindən "turançılıq", "pantürkizm" və "yeni osmançılıq" kimi qələmə verilməsinə dair iyrənc təbliğat da puça çıxdı. Ermənistan baş nazirinin Avropa ölkələrinə müraciətlə "erməniləri Türkiyədən müdafiə etmirsiniz, o zaman az vaxt keçər Türkiyəni yenidən Vyana qapılarında görərsiniz" kimi boş və mənasız sözlərinə daha kimsə inanmadı. Türkiyənin Azərbaycan dövlətinin yanında olması haqq-ədalətin və beynəlxalq hüququn yanında olması demək idi.

Azərbaycanın zəfəri, eyni zamanda, ermənilərin birbaşa və ya gizli şəkildə əsassız ərazi iddiaları irəli sürdükləri Gürcüstan, Rusiya, Türkiyə və İranın da qələbəsidir. Ermənilər Gürcüstanın Cavaxeti bölgəsini Ermənistana birləşdirmək üçün separatçılıq fəaliyyətləri ilə məşğuldurlar və belə hesab edirlər ki, onların təminatçısı Tbilisi deyil, İrəvandır. Deməli, Azərbaycanın qələbəsi gürcü xalqının qələbəsi, Gürcüstanda yaşayan ermənilərin Ermənistana birləşmək xəyallarının parçalanması, böhranının dərinləşməsi deməkdir. Heç əbəs deyildir ki, bir çox gürcü alimləri Azərbaycanın qələbəsini Gürcüstanın qələbəsi kimi qiymətləndirirlər. Azərbaycanın qələbəsi Rusiyada yaşayıb sərvət toplayan, yüksək məqamlara yüksələn, lakin Rusiyaya və rus xalqına arxadan zərbə vuran, ayaqlarının altını qazan, Qara dəniz sahilləri torpaqlarına əsassız iddia edən erməniləri də böhrana düşürür. Artıq ermənilərin bundan sonra Rusiya torpaqlarında özlərini həyasızcasına apara bilməyəcəkləri şəksizdir. Azərbaycanın qələbəsi Türkiyəyə açıq, İrana isə xəlvəti ərazi iddialarında olan ermənilərə də zərbə vurdu.

Azərbaycanın qələbəsi erməni diasporu və lobbisinə ağır zərbə oldu. Erməni diasporu heç bir gələcəyi olmayan Ermənistana sərmayə qoymaqda, pullarını havayı yerə göyə sovurmaqda bundan sonra maraqlı olmayacaq. Zəngin ermənilər Ermənistana 30 ildən bəri rəhbərlik etmiş, indi isə artıq siyasi meyit olan şəxslərin xirtdəklərindən tutub soruşacaqlar ki, bəs nə üçün uzun illər boyu bizi aldatmısınız, qoyulan pullar hara gedib?

Müharibə təkcə hərbi qələbə ilə başa çatmadı, eyni zamanda, özlərini hiyləgərliklə dünya ölkələrinə və xalqlarına uzun əsrlərboyu "mədəni xalq" kimi sırıyan ermənilərin iç üzünü bir daha açdı. Dünya maskası yırtılan erməni qəbiləsinin vəhşi olduğunu əyani olaraq gördü. Tərtər şəhərində, hərbi əməliyyatlar meydanından uzaqda yerləşən Gəncə, Bərdə və Ağcabədidə yaşayış binalarının qadağan edilmiş raketlərdən atəşə tutularaq dağıdılması təkcə ağır müharibə cinayəti deyil, eyni zamanda, erməni qəbiləsinin vəhşiliyinin göstəricisi idi. Soruşulur: müharibənin nə demək olduğunu bilməyən uşaqların öldürülməsinin adı nədir?

Döyüş meydanında mundirini, papağını, hərbi biletini qoyub qaçan, yaralı əsgərlərini və meyitlərini götürüb aparmayan ermənilərin Azərbaycanın işğal altında saxladıqları əraziləri boşlatmağa məcbur olub tərk edərkən unitazı qucaqlarına alıb daşımaları bir daha göstərdi ki, bu qəbilə üçün bir unitaz döyüş meydanında gəbərmiş işğalçı erməni əsgərinin cəsədindən daha qiymətlidir. Dünyanın məktəbə, maarifə, səhiyyəyə ehtiyac duyduğu bir şəraitdə ermənilərin Kəlbəcərdə və Laçında təkcə yaşayış evlərini deyil, kitabxanaları, məktəbləri, klubları və tibb məntəqələrini yandırmaları XXI əsr erməni barbarlığının konkret göstəricisidir. Bəs, dünyanın ağ ciyərləri hesab edilən meşələrin yandırılmasının və vəhşicəsinə doğranmasının adı nədir? Bir zamanlar Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin guya ekologiyaya ziyan vuracağını deyən "yaşıllar", qeyri-hökumət təşkilatları görəsən indi niyə susublar? Azərbaycanın qələbəsi həmin təşkilatların da əsl simasını göstərdi.

Müharibədən əvvəl Ermənistanda yürüdülən siyasət, Azərbaycanın isə döyüş və diplomatiya meydanında qazandığı qələbə ermənilərin rus xalqına və Rusiyaya etdikləri xəyanəti, arxadan zərbə vurmalarını bir daha təsdiq etdi. Bu müharibədə Ermənistan haqsız və gücsüz olduğu üçün məğlub oldu. Həm haqq-ədalət, həm də beynəlxalq hüquq Ermənistanın tərəfində deyildi və işğalçı ölkə gec-tez məğlub olmalı idi. Ancaq müharibədə Ermənistan qazanc da əldə etdi. Qurama Ermənistan Respublikası dünyanın siyasi xəritəsində saxlanıldı. Görəsən, ermənilər bunu qiymətləndirə bilirlərmi? Məncə, yox. Çünki həm yaxın, həm də uzaq tarixin təcrübəsi göstərir ki, hansısa amillərin təsiri altında çarizm daim erməniləri himayə edib, əvəzində isə onlar rus xalqına və Rusiyaya xəyanət ediblər. Tarixə qısa səyahət etmək deyilənləri təsdiq edir. Məlum olduğu kimi, çarizm erməniləri XIX əsrdə və sonralar Cənubi Qafqaza gətirərək azərbaycanlılara məxsus torpaqlarda yerləşdirib və əlverişli şərait yaradıb. Əvəzində rus hakimiyyəti nə görüb? 1905-1906-cı illərdə erməni terror-siyasi təşkilatları Rusiyanı zəiflətməkdən ötrü fəaliyyət, göstərib və xarici ölkələrin agentləri kimi çalışıblar. Erməni təşkilatları Birinci Dünya müharibəsi illərində çarizmdən silahlar alıb bandalar düzəltsələr də, sonradan bu silahı ruslara və Rusiyaya qarşı yönəldiblər. Brest-Litovsk barışığı zamanı Cənubi Qafqazın xəritəsi cızılarkən ermənilər üçün də nəzərdə tutulan kiçik bir ərazidə 1918-1920-ci illərdə qurulan Daşnak Ermənistanından rusları qovublar. Rusların sayı 15 min nəfərdən 14 min nəfərə düşüb və ya 7 faiz azalıb. Sovet hakimiyyəti illərində ittifaq mərkəzi Ermənistana nə qədər qayğı göstərsə də, dotasiya ilə yaşatsa da, ermənilər daim ruslara nifrət ediblər, rus dili və mədəniyyətinə yuxarıdan, həqarətlə baxıblar, rusları geri qalmış hesab ediblər.

1991-ci ildən sonra mövcud olan bütün hakimiyyətlər zamanı Ermənistanda yürüdülən xarici siyasət xətti Rusiyanın və rus xalqının əleyhinə olub. Ermənilər Rusiyadan hərbi-texniki və digər yardımlar alaraq öz çirkin niyyətlərinə çatıblar, arxadan isə Rusiyanın və rusların kürəyinə xəncər sancıblar. Bu gün Ermənistanda rus əhalisi demək olar ki, yoxdur. Rus məktəbləri, kütləvi informasiya vasitələri bağlanıb. Bütün bu siyasətin bircə adı var: erməni nankorluğu və erməni xəyanəti! Rusiya bu dəfə də Ermənistanı Azərbaycanın əlindən aldı, qurama dövlətini dağılmaqdan xilas etdi. Çətin vəziyyətdə olan ermənilər indi bir tərəfdən, Rusiyaya yalvarmaqda davam edirlər, digər tərəfdən isə yenə də ona arxadan zərbə vurmağa hazırlaşırlar.

Bu, özünü nədə təzahür edir? İlk növbədə Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyanın imzaladıqları bəyanatı təftiş etmək cəhdlərində və yeni müharibə çağırışlarında. Müharibə çağırışları birbaşa Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin nüfuzunu sarsıtmaq, regionda sabitliyin qurulmasında maraqlı olmayan dövlətlərin siyasətinə nökərçilik etməkdir. Bəzi erməni siyasətçiləri deyirlər ki, guya Ermənistan Cənubi Qafqazda Rusiyanın yeganə strateji müttəfiqidir. Bu fikirlər cəfəngiyatdan başqa bir şey deyildir. Həmişə olduğu kimi, Ermənistan bu gün də Rusiyanın çiyinlərində bir yük olaraq iyrənc siyasəti ilə rus xalqına ancaq hörmətsizlik gətirir. Regionda Rusiya əleyhinə olan ən xırda əhvali-ruhiyyə varsa, onun da kökü daim əsassız iddiaları və haqsız olan ermənilərin davranışları ilə bağlıdır.

Hərbi əməliyyatlar Ermənistanın rüsvayçı məğlubiyyəti ilə başa çatsa da, İrəvanın yeni müharibəyə başlamaq şansı varmı və ya bu xəyala düşərsə, aqibəti necə olar? Ermənistanın yeni bir müharibə cəhdi ilk növbədə qarşısında Rusiyanı görməsi deməkdir. Digər tərəfdən, əgər bu dəfə Rusiya Ermənistan üzərindən əlini çəkərsə, müzəffər Azərbaycan Ordusu bayrağımızı tarixi şəhərimiz olan İrəvan qalasında sancar. Müharibədə qalib gəlmək üçün dövlətin qüdrəti lazımdır. Ermənistanın belə bir gücü, insan resursu və potensialı yoxdur və heç vaxt da olmayacaq. Hamı yaxşı gördü ki, 44 günlük müharibənin gedişində Ermənistan ordu sıralarını doldurmağa adam tapa bilmir, uşaqları və qadınları cəbhəyə yollayırdı. Dərin demoqrafik böhranın mövcud olduğu, əhalisinin artmadığı, əksinə yaşayanların da tərk edib getdiyi Ermənistan adlı bir dövlətin heç bir gələcəyi yoxdur. Xarici ölkələrdən uzun on illər boyu olduğu kimi, ermənilərin aldadılıb Ermənistana gətirilməsi nağıllarına daha heç kim inanmır. Deməli, yeni müharibə olacağı təqdirdə Ermənistanda döyüşə getməyə heç qocalar da qalmayacaq. Müharibə maliyyə-iqtisadi qüdrət, hərbi-sənaye kompleksinin gücü ilə aparılar. 8 milyard dollar xarici borcu olan Ermənistanda belə bir sənayeni qurmağa imkanlar yoxdur və olmayacaq da. Erməni xalqının elmi-intellektual potensialı da bu işləri görmək üçün çox məhduddur.

44 günlük müharibədə qazanılan qələbə ermənilərin bədbəxtliyinin köklərini bir daha üzə çıxardı. Göstərdi ki, erməni ünsürünün bədbəxtliyinin başlıca səbəbi son iki yüz ildə gəlib yerləşdikləri və aborigen olmadıqları regionun yerli xalqları ilə dil tapıb keçinməməkdə və üçüncü qüvvəni gətirməkdədir. Müstəqil yaşamaq təfəkkürünə və potensialına sahib olmadığından daim qul psixologiyasına malik olan bu ünsür Rusiyadan istifadə edib istəklərinə çatır, sonra xəyanət edərək ona arxadan zərbə endirir, çətin vəziyyətə düşən kimi "bizi xilas edin" deyə bağırır. Belə hesab edirlər ki, rus əsgərləri gəlib onların avantürsit xəyalları yolunda ölməli, rus anaları gözüyaşlı qalmalı, ermənilər isə yenə də özlərini həyasız aparmalıdırlar. Daha dövr o dövr deyildir. Erməni nağıllarına inananların sayı getdikcə azalır.

*Müharibə, eyni zamanda, ermənilərin nicatının nədə olduğunu göstərdi. Ermənilərin nicatı qonşu ölkələrlə, ilk növbədə, Azərbaycanla dil tapıb yaşamaqdan keçir. Bu qəbilə başa düşmür ki, hər bir xalqın inkişafı üçün başlıca amil təkcə təbii sərvətlər, ərazi deyil, qarşılıqlı faydalı əməkdaşlıqdır. Ermənistan əsassız iddialarından əl çəkəcəyi və bu əməkdaşlığa hazır olacağı təqdirdə nə isə əldə edə bilər. Yoxsa, bu qurama dövlətin heç bir gələcəyi yoxdur. Ermənistan reallıqları dərk edəcəkmi? Bunu zaman göstərəcək.*

**Musa QASIMLI,**
**Milli Məclisin deputatı,**
**AMEA-nın müxbir üzvü,**
**professor**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Dekabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Ali Məclisin sədri Seyid Abbas Musəvini ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib. Ali Məclisin sədri Azərbaycan-İran əlaqələrindən, eləcə də Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əməkdaşlıqdan bəhs edib, ikitərəfli münasibətlərin perspektivlərini diqqətə çatdırıb.

Seyid Abbas Musəvi Ali Məclisin sədri ilə görüşdən və Naxçıvana səfərindən böyük məmnunluq duyduğunu bildirib. Azərbaycan Respublikasının şanlı qələbəsi münasibətilə Ali Məclisin sədrinə təbriklərini çatdıran səfir İranın Azərbaycana dəstək verdiyini və xalqımızın sevincinə şərik olduğunu vurğulayıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni görüşdə iştirak edib.

# Venesuela ilə Azərbaycan arasında mədəni əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov Venesuela Bolivar Respublikasının ölkəmizdəki səfiri Kristofer Alberto Martinez Berroteran ilə görüşüb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Anar Kərimov iki ölkə arasında mütəxəssislərin istiqamətlərdə münasibətlərin inkişaf etdiyini bildirib, mədəni əməkdaşlığın genişləndirilməsi üçün müxtəlif tədbirlərin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

O, xalqımızın Vətən müharibəsindəki zəfəri barədə söhbət açıb, 30 ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımızın talan olunduğunu, o cümlədən mədəniyyət müəssisələrinin, tarixi abidələrin məhv edildiyini diqqətə çatdırıb. Azad edilmiş rayonlarda geniş quruculuq işlərinin başlanacağını, həmin ərazilərdə mədəniyyət infrastrukturunun yaradılması, tarixi-mədəni abidələrin bərpası ilə bağlı böyük işlərin görüləcəyini qeyd edib.

Qəbula görə minnətdarlığını bildirən səfir ölkələrimiz arasındakı münasibətlərin mədəniyyət sahəsində ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa zəmin yaratdığını bildirib. Venesuelada hər il mədəniyyət sahəsində keçirilən beynəlxalq tədbirlərdən bəhs edən səfir bu sırada dünyanın 40-dan çox ölkəsinin qatıldığı beynəlxalq kitab sərgisini vurğulayıb və Azərbaycan tərəfini növbəti sərgidə iştirak üçün dəvət edib. Mövcud pandemiya şəraitinin 2021-ci ildə sabitləşəcəyinə ümidvar olduğunu deyən səfir gələn il Azərbaycanda bir sıra mədəniyyət tədbirlərinin, o cümlədən Venesuela filmləri festivalı, Venesuela rəssamlarının sərgisi, yazıçılar və şairlər arasında mübadilə, mədəni irsin qorunması və bərpası barədə müzakirələr keçirməyi planlaşdırdığını deyib.

Azərbaycan-Venesuela mədəni əlaqələrinin inkişafı ilə bağlı təklif və təşəbbüslərə də dəstək göstərməyə hazır olduğunu bildirən Anar Kərimov keçiriləcək tədbirlərin Venesuela mədəniyyəti haqqında Azərbaycan xalqına və Azərbaycanın mədəni irsi haqqında Venesuela xalqına geniş məlumat verəcəyinə inamını ifadə edib.

Görüş qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Vətən müharibəsinin əbədiləşən tarixləri

Əvvəli 1-ci səh.

Qarabağda yenidən hərbi əməliyyatların başlanacağı təqdirdə üstünlüyün Azərbaycan Ordusunun tərəfində olacağı sirr deyildi. Elə sentyabrın 27-də Füzulinin və Cəbrayılın bir neçə kəndinin işğaldan azad edilməsi müharibənin Azərbaycanın qələbəsi ilə başa çatacağının anonsu idi. Əməliyyatların davam etdiyi 44 gün ərzində torpaqlarımızın sürətlə azad edilməsi tərəflərin qüvvə nisbəti ilə bağlı həqiqətləri ortaya qoydu. Məlum oldu ki, Azərbaycan bu illərdə yeni ordu yaradanda Ermənistan öz ordusunu respublikamızın döyüş imkanları qarşısında heç nəyə yaramayan texnikalarla doldurmaqla məşğul imiş.

Bu müharibə Azərbaycan xalqının öz vətəni uğrunda müqəddəs savaşı idi. 30 il əvvəl başlasa da, bu savaş bitməmişdi, başa çatmamışdı. Amma ədalət bərpa edilməli, torpaqlarımız azad olunmalı, qisas alınmalıydı. İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan dövlətimiz bunu bacardı, savaşı bitirdi, həm də Qələbə ilə.

## İftixarla qeyd edəcəyimiz Zəfər Günü

Bu qələbənin müəllifi İlham Əliyevin Ali Baş Komandanı olduğu müzəffər Azərbaycan Ordusudur. Xalqımıza bu zəferi yaşadanlar bizim əsgərlərimiz və zabitlərimizdir. 44 gün ərzində rəşadətli ordumuz bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, ümumilikdə 300-ə yaxın yaşayış məskənini işğaldan azad etdi.

Mədəniyyətimizin məbədi, milli qürurumuzun tacı olan Şuşanın noyabrın 8-də azad edilməsi isə Vətən müharibəsinin həlledici məqamı oldu. Məhz Şuşanın azad edilməsindən sonra məğlub olduğunu etiraf edən Ermənistanın hərbi-siyasi rəhbərliyi Ali Baş Komandan İlham Əliyevin şərtlərini qəbul etməyə razı oldu. Şuşanın azad edilməsi nəticəsində Ermənistan kapitulyasiyaya məcbur qaldı və bunun nəticəsində Azərbaycan Ordusu bir güllə də atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etdi.

Xalqımızın əzmi və iradəsi, güclü ordunun yaradılması və milli həmrəylik Vətən müharibəsindəki qələbəni təmin edən mühüm amillər oldu. Azərbaycan şanlı qəhrəmanlıq salnaməsi yazaraq, qalib xalq olduğumuzu bütün dünyaya sübut edib tarixi zəfəri qazandı. Prezident İlham Əliyevin sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabr ayının 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək.

Bu sərəncam bütün ölkə ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılandı. Bununla da Azərbaycanda qeyd olunan əlamətdar tarixlərin sırasına bir dövlət bayramı da əlavə olundu. Bu bayramı xalqımız səbirsizliklə gözləyirdi. Ona görə 8 Noyabr Zəfər Günü xalqımızın ən müqəddəs və gözəl bayramlarından biri kimi hər zaman qürurla, iftixarla qeyd ediləcək.

## Şəhidlərin xatirəsi hər zaman ehtiramla anılacaq

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşlərdə yaralanan hərbçilərlə görüşü zamanı deyib: *"Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir"*.

Bəli, Azərbaycan Ordusunun əsgərləri, zabitləri, gizirləri 44 günlük müharibədə xalqımızın qəhrəmanlıq salnaməsini öz hərbi nümunələri ilə zənginləşdirdilər. Onlar igidlikləri ilə dastana döndülər, bütün dünyaya göstərdilər ki, Azərbaycan əsgərinin cəsarəti qarşısında düşmən dayana bilməz, məğlub olmağa məhkumdur.

Ermənistanın cəbhə xəttində möhkəmləndirdiyi, keçilməz etdiyi mövqeləri yaranlar Azərbaycan əsgərləridir. Onlar öz rəşadətləri, qorxmazlıqları ilə strateji yüksəklikləri, möhkəmləndirilmiş döyüş mövqelərini birrə həmlədə ələ keçirdilər. Elə bir döyüş olmadı ki, əsgərlərimiz geri çəkilsinlər, əksinə hər döyüşdən-döyüşə ataş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində torpaqlarımızı azad etdilər. Hər bir şəhər və kəndin azad olunması əsgərlərimizin qəhrəmanlığı, qanı sayəsində mümkün oldu. Şuşanın azad edilməsi isə Azərbaycan əsgərinin timsalında dünya hərb elminə düşən və öyrənilməli unikal qəhrəmanlıq nümunəsidir.

Vətən övladları bu yolda ölümə meydan oxudular, torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək müqəddəs şəhidlik zirvəsinə ucaldılar. 44 gün davam edən döyüşlərdə ordumuzun 2783 nəfər döyüşçüsü qəhrəmancasına həlak oldu. Biz bu gün torpaqlarımızın azadlığına, ərazi bütövlüyümüzün bərpasına görə bu şəhidlərimizə borcluyuq. Onlar Azərbaycanı, xalqımızı öz canları, qanları ilə qalib etdilər.

Bu müharibədə mülki vətəndaşlarımız da həlak oldular. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl atdı, günahsız dinc insanları, o cümlədən uşaqları, körpələri qətlə yetirməklə müharibə cinayətləri törətdi.

Vətən uğrunda şəhid olan, canından keçən qəhrəman oğullarımız xalqımızın qəlbində əbədi yaşayacaqlar. Prezident İlham Əliyevin sərəncamına əsasən, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın əlaməti olaraq hər il sentyabrın 27-si respublikamızda Anım Günü kimi qeyd ediləcək.

Xalqımız canından keçən övladlarının xatirəsini hər zaman ehtiramla anacaq. Şəhidlərimizin qəhrəmanlığı, şücaəti böyükməkdə olan nəsillərin yollarına işıq salacaq, onlara hər zaman ilham verəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Heydər Əliyev Fondunun dəstəyi ilə şəhidlərə ithaf olunmuş "Əbədi zirvə" musiqi kompozisiyası hazırlanıb

Canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ithaf olunan musiqi kompozisiyası hazırlanıb.

AZƏRTAC xəbər verir ki, Əməkdar artist Aygün Bəylərin ifa etdiyi "Əbədi zirvə" adlı musiqi kompozisiyasının bəstəkarı Tural Məmmədlidir. Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşan musiqi kompozisiyasının klipi tezliklə ictimaiyyətə təqdim olunacaq. Klipin çəkilişlərini Bakı Media Mərkəzi həyata keçirir.

Şəhidlərimizin ruhu qarşısında baş əyirik! Bir ömür boyu onlara minnətdar olacaq, qəlbimizdə əbədi yaşadacağıq!

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

Dekabrın 4-də Bakıdakı Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində Vətən müharibəsində canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib. Erməni təcavüzünün qurbanları olmuş dinc sakinlərin də xatirəsi yad edilib.



AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein jurnalistlər qarşısında çıxış edib. O vurğulayıb ki, rəşadətli Azərbaycan döyüşçüləri Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə müqəddəs borclarını yerinə yetiriblər. Vətənimizin torpaqlarını çoxillik işğaldan azad etmək naminə canlarından keçmiş bu igidlərin xatirəsi əbədi yaşayacaq.

Aleksandr ata qeyd edib ki, mənfur düşmən münaqişə zonasından kənarda yerləşən dinc şəhərlərə dəfələrlə hücum edib, nəticədə onlarla insan, o cümlədən qadınlar və uşaqlar həlak olub. Arxiyepiskop vurğulayıb ki, Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələri bu ölkəni özləri üçün doğma ev hesab edir, ona görə də milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin hər bir vətəndaşı son damla qanına qədər öz Vətənini qorumağa hazırdır.

Daha sonra Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində arxiyepiskop Aleksandrın və baş keşiş Leonid Miltıxın iştirakı ilə şəhidlərin xatirəsinə dualar oxunub.

# Gəncədə və Şamaxıda Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə dualar oxunub

Gəncədə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə dualar oxunub.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar olaraq Gəncədəki Şah Abbas Cümə məscidində, Aleksandr Nevski Rus Pravoslav kilsəsində və Yəhudi Dini İcmasında anım mərasimləri təşkil olunub, şəhidlərin ruhuna dualar oxunub.

Gəncənin Şah Abbas Cümə Məscidində vəhdət namazı qılınıb. Şəhidlərin ruhuna dualar oxunub. Dindarlar Vətənimizin bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərə Allahdan rəhmət, yaralılara isə Tanrıdan şəfa diləyiblər. Mərasimdə Qafqaz Müsəlmanları İdarəsinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov və din xadimləri iştirak ediblər.

Gəncədə Aleksandr Nevski Rus Pravoslav Kilsəsində də Vətən müharibəsi şəhidləri xüsusi mərasimlə yad edilib. Anım mərasimi zamanı şəhidlərimizin ruhuna dualar oxunub.

Gəncədəki Yəhudi Dini İcmasında Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib. Anım mərasimində Vətən müharibəsi şəhidlərinin ruhuna dualar oxunub, yaralılara şəfa dilənib.

Xatırladaq ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olub. Onların sırasında 103 nəfər hərbi qulluqçunun DNT analiz məhsulu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir.

* * *

Dünən Şamaxıda torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərdə qurban gedən şəhidlərimizin xatirəsi hörmətlə anılıb.

AZƏRTAC xəbər verir ki, hər yerdə - idarə və müəssisələrdə, küçə və parklarda, ticarət və iaşə obyektlərində, insanların, necə deyərlər, bir gözündə fərəh, bir gözündə kədər var idi. Sevinc 30 ildən bəri erməni qəsbkarlarının işğalı altında olan Qarabağımızın cəmi 44 gün ərzində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən azad edilməsi ilə yaşanan Qələbənin nəticəsi idi. Kədər isə vətənimizin azadlığı uğrunda canından keçən və əbədiyyətə qovuşan 2783 nəfər şəhidimizin qəlbələrdə yaşatdığı acı idi. Şəhidlərimizin 42 nəfəri də məhz Şamaxıdan idi və onların xeyli hissəsi Vətən müharibəsinə könüllü olaraq getmişdi.

Saat 12:00-da bütün rayon, o cümlədən Şamaxı şəhəri bir dəqiqəlik sükuta qərq olmuşdur. Hamı əbədiyyətə qovuşan şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Qafqazın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilən Şamaxı Cümə məscidində də şəhidlərimizin xatirəsi ehtiramla yad edilib, ruhlarına dualar oxunub. Məscidin imamı, Qafqaz Müsəlmanları İdarəsinin Şamaxı və Qobustan üzrə səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində ermənilərin tarixən Azərbaycan xalqına qarşı etdikləri soyqırımları xatırladaraq deyib: "Azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırımı siyasəti, xüsusilə İrəvan, Qarabağ, Bakı, Quba, Şamaxı və digər bölgələrimizdə dəhşətli faciələr yaşadıb. 1918-ci il hadisələri zamanı Şamaxıda 20 min nəfərdən çox insan qətlə yetirilib. Mövcud olan 12 məscidin hamısı yandırılıb. Təkcə məscidlərdə 2 min nəfərə yaxın insan, o cümlədən din xadimləri öldürülüb". İmam Mərəhmət Mustafayev o vaxt məscidlərə sığınan insanların diri-diri yandırıldığını diqqətə çatdırıb və təəssüflə bildirib ki, məhz ermənilər tərəfindən yandırılan Şamaxı arxivində 1918-ci il hadisələrinə dair xeyli qiymətli məlumatlar olub.

"Erməni vandalizmi bu gün də davam etməkdədir. Təkcə son 30 ildə Qarabağımızda olan 67 məscid vəhşicəsinə dağıdılıb", - deyə Mərəhmət Mustafayev qeyd edib.

# Ermənistanda müxalifət vətəndaş müharibəsinə hazırlaşır





Ermənistanda getdikcə gərginləşən siyasi vəziyyət Paşinyan hakimiyyətinin parçalanması ilə müşayiət olunmaqdadır, iqtidarın istefasını tələb edən insanların sayı daha böyük sürətlə artmaqda davam edir. Müxalifətin aksiyalarından sonra hakimiyyətin dayaqları xeyli laxlayıb. Son günlərdə ölkəyə ermə-ni lobbisi tərəfindən edilən təzyiqlər də artıb.

## Aksiyalar səngimək bilmir

Ermənistanda 17 müxalifət partiyası baş nazir Nikol Paşinyan tərəfindən Qarabağa dair üçtərəfli bəyanatın imzalanmasına etiraz olaraq 10 noyabrdan bəri Yerevanda mitinqlər keçirir. Müxalifət Paşinyanın istefasını, xilasetmə komitəsinin yaradılmasını və kapitulyasiya bəyanatının bəzi müddəalarında dəyişiklik edilməsini tələb edir. Bu arada məlum olub ki, Ermənistan Xüsusi İstintaq Xidməti qanunsuz aksiyalarla bağlı cinayət işi açıb, saxlanılanlar var.

Müxalifətin Yerevanın mərkəzində keçirdiyi son yürüşdə "Daşnaksütyun", "Vətən" və "Çiçəklənən Ermənistan" partiyalarının üzvləri iştirak ediblər. Etirazçılar əllərində "Xain Paşinyan", "Rədd ol!" şüarları, "Azad, müstəqil Ermənistan" və "Paşinyan hakimiyyəti istefaya getməlidir" çağırışları ilə meydandadırlar. Bundan narahat olan hakimiyyət rəhbərliyinin göstərişi ilə etiraz edən onlarca aksiya iştirakçısı həbs olunub. Polis rəhbərliyi nümayişçilərin parlamentin hasarına "Xəyanətkar Paşinyan!" yazılmış iri plakatı asmaq cəhdinin qarşısını almaq üçün "qırmızı beretlilər" adlanan xüsusi dəstəni əraziyə yeridib. Aksiyaçılar buna baxmayaraq mövqelərindən geri çəkilməyəcəklərini bildiriblər.

Nikol Paşinyan üçün doğma olan İcevan şəhərində də aksiyalar başlayıb. Etirazçılar baş nazirin istefasını tələb ediblər. Aksiya zamanı polislərlə onlar arasında qarşıdurma baş verib. Vətəndaşlar hüquq mühafizə orqanlarının əməkdaşlarını Paşinyanı müdafiə etməməyə çağırıblar. Polislər buna cavab olaraq bir neçə nəfəri nəzarətə götürüblər.

"Çiçəklənən Ermənistan" partiyasından olan deputat İveta Tonoyan deyib ki, müxalifət dekabrın 5-də Yerevanda ümumxalq mitinqi keçirməyi planlaşdırır. O, "Facebook" səhifəsində hamını paytaxtın Azadlıq meydanında keçiriləcək ümumxalq mitinqinə dəvət edib.

Proseslərin gedişatı göstərir ki, Ermənistanda vətəndaş müharibəsi qaçılmaz olacaq. Müxalifətin günlərdir ki, keçirdiyi aksiyaların nəticəsində vətəndaş qarşıdurması mütləq baş verəcək.

Ermənistanda N.Paşinyanın yerinə müxalifətin vahid namizədi sabiq baş nazir və müdafiə naziri Vazgen Manukyandır. Bununla bağlı "Vətən" Partiyası İdarə Heyətinin üzvü Robert Arutyunyan deyib ki, Manukyan Ermənistanın keçid hökumətinin baş naziri vəzifəsinə vahid namizəd olacaq.

Xatırladaq ki, Vazgen Manukyan 1990-1991-ci illərdə Ermənistanın baş naziri, 1992-ci ildən 1993-cü ilə qədər (Dağlıq Qarabağ münaqişəsi dövründə) müdafiə naziri olub, eyni zamanda ölkənin hərbi - sənaye kompleksinə başçılıq edib. 1993-cü ilin avqustunda müdafiə naziri vəzifəsindən azad edilib.

## Sabiq müdafiə naziri xəbər sızdırmaqda ittiham edilir

Yaşanan tənəzzül və xoasun özünü qabarıq şəkildə göstərdiyi sahələrdən biri isə ölkənin məğlub ordusudur. Müharibədən sonra yayılan məlumatlar Ermənistan ordusunda əsl anarxiya, özbaşınalıq hökm sürdüyünü göstərir. Yerli media yazır ki, Paşinyan hökuməti 44 günlük müharibədən nəticə çıxarmalıdır - ordunun döyüş bacarığı haqda təbliğat tezisi hamımının gözü qabağında buxarlanıb.

Bu arada separatçıların keçmiş "müdafiə naziri" Cəlal Arutyunyan ilə Ermənistanın sabiq müdafiə naziri David Tonoyan arasında baş vermiş qalmaqalın təfərrüatları məlum olub. "4rd.am" saytı yazır ki, Cəlal Arutyunyan Azərbaycan Ordusunun dəqiq zərbələri ilə məhv edilməmişdən əvvəl onunla David Tonoyan arasında mübahisə düşüb. Mübahisəyə səbəb İordaniyadan gətirilən hava hücumundan müdafiə sistemlərinin istifadə edilməməsi olub.

Bildirilir ki, həmin qurğuların bir çoxu istifadəyə yararsız olduğundan tərəflər arasında mübahisələr qızışıb: "Mübahisə zamanı Cəlal Arutyunyan müharibə bitdikdən sonra susmayacağını, cənub cəbhəsindəki hava məkanının tamamilə müdafiəsiz hala gəldiyinə görə günahkar olan insanların adlarını açıqlayacağını deyib. Üstəlik, məlum partlayışdan bir gün əvvəl Cəlal Arutyunyan Arayik Arutyunyanı (Qarabağ separatçılarının rəhbəri-red.) təcili Şuşa ətrafında müdafiə istehkamlarının inşasına başlamağa çağırıb. Çünki qarşı tərəf bu istiqamətdə yeni qüvvələr toplayırmış və bu səbəbdən keçmiş nazir əlavə ehtiyat qüvvələri toplamağa və top tədarükünə başlamağa ehtiyac olduğunu bildirib".





Cəlal Arutyunyanın yaxınları iddia edirlər ki, onun hərəkət istiqaməti ilə bağlı məlumat qəsdən sızdırılıb: "Bunun nəticəsində Azərbaycan Silahlı Qüvvələri "nazirin" yerini asanlıqla müəyyən edə bilib".

Qeyd edilənlərdən aydın olur ki, müharibədəki məğlubiyyət fonunda Ermənistan ordusunda çöküş ölkənin özündə də açıq etiraf olunur. Paşinyan isə ona qarşı yönəlmiş təhdidləri güc yolu ilə aradan qaldırmağı düşünür. Bu da o deməkdir ki, Ermənistanı qarşıdakı dövr ərzində hələ də qanlı günlər gözləyir.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Əbədiyyət məqamı

*Əvvəli 1-ci səh.*

Həm də son anda Vətən analarının qucağında uyumağı seçən həmin mərd oğulları dünyaya gətirən anaların gözlərindən kədər yaşı axsa belə, elə onların da "Vətən sağ olsun, Vətən var olsun" dediklərinin şahidi olduq...

Ey cənnət ətirli şəhidim, öz qanınla tarixin qızıl səhifələrinə min illərin o üzündə belə şərəflə xatırlanacaq bir salnamə yazdın. Milyonların Vətən nisgilinə məlhəm çəkdin, Qarabağ düyününü bir yumruğunun zərbəsiylə birmərrə çözdün. Bu torpaq uğrunda canından keçən şəhidlərimizin, Xocalıda soyqırıma məruz qalan məsumlarımızın qisasını almaq kimi müqəddəs bir missiyanı da şərəflə yerinə yetirdin, düşmən əsirliyində zülm görən, işgəncə yaşayan soydaşlarımızın yarasına məlhəm çəkdin.

Bütün elimə-obama illərdir həsrətində, arzusunda olduğu sevinci yaşatdın, gələcək övladlarımızın daha xoşbəxt yaşayacağı bütöv və xoşbəxt bir Azərbaycan bəxş etdin.

Ey müqəddəs şəhidim, biz firavan yaşayaq, bölünməz Vətənin övladları olaq deyə, bir an belə tərəddüd etmədən ölümün gözünə dik baxaraq özünü qurban verdin.

Nə etsək də, nə desək də, qanınla imza atdığın bu qəhrəmanlıq salnaməsinin qarşısında sönük qalar, haqqını ödəyə bilmərik!

Fəth etdiyin uca şəhidlik zirvən qarşısında baş əyirik!

Əsrlər, minilliklər keçsə belə, bu fədakarlığını unutmayacaq, qəlbimizə, könlümüzə həkk edib, dualarımızla yad edəcəyik.

İlahi, necə bəxtəvər yaratmısan bu yurdu ki, hər qarışı üçün çarpışıb canını heçə sayan igidləri var!

Can Azərbaycanım, necə xoşbəxtsən ki, uğrunda şəhadət şərbəti içib torpağına qarışmağı ən uca zirvə sayan oğulların, qızların var...

Özünü Vətənə qurban deyən milyonların var...

İndi isə Vətən uğrunda çarpışan daha 2783 övladın bir-birinə qovuşaraq ölməz ruhlarıyla üz tutdular Tanrının müqəddəs dərgahına doğru...

Zirvədə olanlar əbədiyyətdə yolçuluğa çıxdılar...

*Şəhidlər ölməz ruhla, gedir üzü Allaha,*
*Şəhidlər gedən yolu tufanlar bağlamazlar.*
*Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar!..*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Ordusunda Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb

Azərbaycan Ordusunda Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən saat 12:00-da Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə bir dəqiqəlik sükut elan edilib.

## FHN-in İdman-Sağlamlıq Mərkəzinin əməkdaşları şəhid ailəsini ziyarət ediblər

Fövqəladə Hallar Nazirliyi (FHN) İdman-Sağlamlıq Mərkəzinin rəisi polkovnik Füzuli Musayev və mərkəzin əməkdaşları Binə qəsəbəsində yaşayan, iki oğlu Vətən müharibəsində şəhid olmuş Məmmədovlar ailəsini ziyarət ediblər.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, şəhid qardaşlar İman və Bəhrəm Rusiyanın Həştərxan vilayətində ali gəmiçilik məktəbində təhsil alıblar. Müharibə başlayan kimi döyüşə könüllü qoşularaq Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının kəndlərinin azad edilməsində iştirak ediblər. Lakin Xankəndi yaxınlığında gedən döyüşlərdə eyni anda xain düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb, adlarını Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıblar.

İdmançı şəhidlərimizin atası Elman Məmmədov övladları ilə bağlı xatirələrindən, şəhid qardaşların həyat yolundan, müqəddəs amal uğrunda gedən müharibədəki qəhrəmanlığından, onların mehribanlığından, şəhid olmaq arzularından, komandir və yoldaşlarının İman və Bəhrəmin qəhrəmanlığından və şücaətindən danışıb.

FHN-in əməkdaşları ailəyə başsağlığı verib, şəhidlərimizin daim Azərbaycan xalqının qəlbində uca tutularaq heç zaman unudulmayacağını vurğulayıb, valideynlərə dərin ehtiramlarını bildiriblər.

Vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızın xatirəsi xalqımızın yaddaşında əbədi olaraq qalacaq.

## *Milix YEVDAYEV:* "Şəhidlərimiz daim qəlblərimizdə yaşayacaqlar"

"Azərbaycan torpağı uğrunda şəhid olan insanların ruhu bu gün şaddır. Şəhidlik həyatın davamıdır, şəhid olan əsgər və zabitlərimiz daim qəlblərimizdə yaşayacaqlar".



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev bildirib.

Milix Yevdayev qeyd edib ki, şəhidlərin canı, qanı bahasına başa gələn bu şanlı Qələbə bizi bütün dünya xalqları qarşısında başıuca etdi. Bu gün 30 ildir həsrətində olduğumuz torpaqlarımızın vüsalına yetişmişik.

"Bir gözümüz hüznlü, digər gözümüz sevincli ola-ola biz bu günü qeyd etməliyik ki, gələcək nəsillərə nümunə olsun", - deyə o qeyd edib.

## Etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir şəhidin xatirəsi bizim üçün mühümdür

"Biz şəhidlərimizin xatirəsi üçün bugünkü ibadətlə kifayətlənməməliyik. Onlar bizə Qələbə bəxş etdilər, torpaqlarımızı işğaldan azad etdilər və biz oraya qayıda bilərik. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir şəhidin xatirəsi bizim üçün mühümdür".



AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda Avropa Yəhudiləri Sinaqoqunda şəhidlərin anım mərasimində Azərbaycanın aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqal bildirib.

Baş ravvin deyib: "Biz öz Vətənimizi - Azərbaycanı çox sevirik, onu müdafiə etmək bizim üçün böyük şərəfdir. Biz burada müxtəlif millətlərin və dinlərin nümayəndələri kimi rahat yaşaya, öz mədəniyyətimizi və dinimizi təmsil edə bilirik. Çox ümid edirəm ki, Azərbaycan bir daha öz oğullarını qurban verməli olmayacaq. Bizim harada dua etməyimizin fərqi yoxdur - istər sinaqoqda olsun, istər məsciddə. Hamımız Vətən müharibəsi zamanı şəhid olanların ruhuna və yaralıların sağalmasına görə Uca Tanrıya dua edirik. Biz şəhidlərimizin yerinin behişt olması, onların ailələrinin sevinc və səadətlə əhatə olunmaları üçün dua edirik".

## *Aleksandr İŞEİN:* "İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinin parlaq səhifəsidir"

"İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinin parlaq səhifəsidir".

AZƏRTAC xəbər verir ki, bunu Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein bildirib.

Arxiyepiskop deyib ki, bu gün Azərbaycan tarixində xüsusi gündür. Biz hamımız Qarabağın azad edilməsi ilə əlaqədar sevincliyik. Qarabağ Azərbaycandır! Bu, bizim üçün artıq bir növ salamlaşmaya çevrilib. Bu ifadə Azərbaycan xalqının qəhrəmanlığı və ədalətini, ölkə rəhbərinin istedadlı və dahi olduğunu göstərir.

Aleksandr İşein qeyd edib ki, Qələbəni qeyd etməklə yanaşı, hər kəs Vətəni müdafiə edərkən şəhid olanları da xatırlayır. Bu müharibə Azərbaycan tarixinə təkcə İkinci Qarabağ müharibəsi kimi deyil, həm də Vətən müharibəsi kimi daxil olacaq. Bütün Azərbaycan üçün bu, xalq yaddaşının parlaq səhifəsidir.



## Heydər məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsinə vəhdət namazı qılınıb

Dekabrın 4-də Heydər məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib, vəhdət namazı qılınıb. AZƏRTAC xəbər verir ki, anım mərasimində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iştirak edib.





QMİ sədri deyib ki, Azərbaycan xalqına bu Qələbəni bəxş edən Müzəffər Ali Baş Komandanımız, Ordumuz, şəhidlərimizdir. 44 günlük Vətən müharibəsində başda Ali Baş Komandan İlham Əliyev olmaqla Azərbaycan Ordusu zəfər çalaraq tarixdə yeni səhifə açdı. Xalqımız xoşbəxt xalqlardan biridir. Bu Qələbənin memarı isə Ulu Öndər Heydər Əliyevdir. 1993-cü ildə xalqımız Ümummilli Liderə müraciət edərək onu Azərbaycana dəvət etdi. Ulu Öndər müstəqil Azərbaycanı yenidən qurdu.

A.Paşazadə deyib ki, Vətən yolunda şəhid olanlar Allah yanında ən yüksək məqamdadırlar. Həm Birinci Vətən müharibəsi, həm də İkinci Vətən müharibəsi dövründə şəhidlərimiz oldu, Allah onlara rəhmət eləsin! Sünni və şiə məzhəbində olanlar bu gün şəhidlərimizin ruhuna birlikdə dualar etdilər.

Şeyxülislam xatırladıb ki, Ulu Öndər Heydər Əliyev Kəbədə olarkən torpaqlarımızın işğaldan azad edilməsi üçün dualar edib. Sonrakı dövrlərdə Kəbədə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da Qarabağın azad olunması, şəhidlərimiz, Azərbaycan üçün dualar ediblər. Bu gün xalqımız İlham Əliyev kimi Prezidenti olduğuna görə Allaha şükür edir. Dövlətimizin başçısı tarixdə daim böyük fateh kimi qalacaq. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada özünü qalib xalq hesab edir və bundan qürur duyur. Biz qalibik. Bu qalibiyyəti bizə Müzəffər Ali Baş Komandanımız, rəşadətli Ordumuz bəxş edib. Buna görə Ali Baş Komandana, Ordumuza təşəkkür edirik, şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Şeyxülislam vurğulayıb ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin böyük vəsiyyətini yerinə yetirdi, torpaqlarımız işğaldan azad olundu. Bu gün xalqımız Prezidentimizin ətrafında sıx birləşib.

QMİ sədrinin birinci müavini, müfti Salman Musayev qeyd edib ki, əldə etdiyimiz tarixi Zəfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın şücaətli oğullarının sayəsində mümkün oldu. Torpaqlarımız şəhid qanı bahasına azad olundu. Şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik. Mənfur düşmən Qarabağdakı məscidlərimizin, ziyarətgahlarımızın və türbələrimizin, demək olar ki, hamısını məhv edib. Prezident İlham Əliyevin də dediyi kimi, o məscidlər, ziyarətgahlar, türbələr bərpa ediləcək. Allahdan arzumuz odur ki, qalibiyyətimiz daimi olsun, dövlətimiz daim inkişaf etsin. Bütün dünyada bizim qalibiyyətimiz öyrənilir. Allah bizə hər zaman böyük müjdələr qismət etsin!"

## Təzəpir və Bibiheybət məscidlərində şəhidlərimizin xatirəsi yad edilib

Dekabrın 4-də Təzəpir məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib. Şəhidlərin ruhuna dualar oxunub, namaz qılınıb.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev jurnalistlərə açıqlamasında bu gün Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsinin dərin ehtiramla yad edildiyini bildirib. O deyib ki, 30 il idi torpaqlarımız işğal altında idi. Azad edilmiş ərazilərimizdəki məscidlər bərpa olunacaq, həmin məscidlərdən azan səsləri eşidiləcək. Bu gün bir çox məscidlərdə, kilsələrdə, sinaqoqlarda şəhidlərimizin xatirəsi yad edilir. Müqəddəs Quranın buyurduğu kimi şəhidlər ölməzdir: "Allah-Təala onlara rəhmət eləsin, ruhları şad olsun! Müqəddəs Qurani-Kərimin "əl-Bəqərə" surəsində buyurulur ki, şəhidlərə ölü deməyin. Onlar ölü deyil, onlar diridirlər. Siz onların məqamını dərk edə bilmirsiniz. Onlar Allah yanında ruzi yeyirlər. Həqiqətən də şəhidlərimiz ölməzliyə qovuşublar, xalqla, millətlə yaşayırlar və yaşayacaqlar. Biz onlardan şəfaət, ruhlarından dualar istəyirik. Vətən uğrunda döyüşlərdə yaralanan qazilərimizə Allahdan şəfa diləyir, tezliklə sağ-salamat öz ailələrinə qayıtmalarını arzulayırıq. Allah Vətən keşiyində duran oğulları, ordumuzu, əsgərlərimizi qorusun. Onlar bu müzəffərliyə, Qələbəyə nail olublar. Əlbəttə ki, bu Zəfərin başında Ali Baş Komandan, Prezident İlham Əliyev dayanır. Allah onu və ailəsini qorusun! Onun bu günlərdə apardığı siyasət bizə böyük qürur verdi. Bu Qələbənin əldə olunmasında Prezident İlham Əliyevin rəhbərliyi danılmazdır. Şükürlər olsun ki, ordumuz, xalqımız, Ali Baş Komandanımız birlikdə Qələbə qazandı. Allah xalqımızı, millətimizi, dövlətimizi var eləsin!"





* * *

Vətən müharibəsində həlak olmuş şəhidlərimizin xatirəsinə həsr edilən anım mərasimi Bibiheybət məscidində də keçirilib.

AZƏRTAC xəbər verir ki, İkinci Qarabağ müharibəsində canlarından keçmiş qəhrəman oğullarımızın xatirəsi ehtiramla yad edilib. Şəhidlərimizin ruhuna dualar oxunub, namaz qılınıb. Məscidin axundu Rahib Babayev şəhidlərimizin xatirəsinin qəlbimizdə əbədi yaşayacağını bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu. Bu müqəddəs amal uğrunda canını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirik. İgid Vətən oğulları Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın 30 illik həsrətinə, nisgilinə son qoydular. Dövlətimiz şəhid ailələrinə və qazilərə hər zaman yüksək diqqət və qayğı göstərir. Vətən uğrunda canlarından keçən şəhidlərimizin ailələrinə və qazilərə yardım etmək, ehtiram göstərmək hər birimizin vətəndaşlıq borcumuzdur. Biz hamımız bu günləri yaşadığımız üçün çox qürurluyuq. Bu gün fəxr edirik ki, biz qalib xalqıq. Azərbaycan Prezidentimizin qətiyyəti, müdrik siyasəti, mərd və cəsur oğullarımızın qəhrəmanlığı sayəsində öz ərazi bütövlüyünü bərpa etdi. Tanrı Azərbaycanı və Prezidentimizi qorusun!

Anım mərasiminin iştirakçısı Azad Heydərov deyib ki, şəhidlik zirvəsi ən uca və müqəddəs zirvədir. Vətənin azadlığı uğrunda şəhid olmaq hər kəsə nəsib olmur. İgid oğullarımızın ruhu qarşısında baş əyirik. Vətən müharibəsində əldə etdiyimiz Qələbə ilə qürur duyuruq. Bu möhtəşəm Zəfərə görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürlərimizi bildiririk.

## Paytaxtdakı Əjdərbəy məscidində şəhidlərin xatirəsinə dualar oxunub



Xalq şəhid verirsə, deməli, o xalq böyük xalqdır. Deməli, bu yurdu qorumağa qadir olan ləyaqətli oğullarımız var. Sıravi əsgərindən tutmuş generalınadək hər bir döyüşçü əlində silah Vətənin bütövlüyü, torpaqlarımızın azadlığı, doğma Qarabağı qanіçənlərdən təmizləmək, mübarizə apardığımız haqq savaşı naminə canını fəda etməyə hazır idi. Bu xalqın böyüklüyü budur!

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, Milli Ordunun rəşadəti, xalq və dövlətin birliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan zəfər Azərbaycan tarixinin ən parlaq səhifələrindən birinə çevrildi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər dekabrın 4-də paytaxtdakı Əjdərbəy məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsini anım mərasimində səslənib.

Anım mərasimində İkinci Qarabağ müharibəsində torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olan qəhrəmanların xatirəsi yad edilib. Sonra "Qurani-Kərim"dən ayələr oxunub, şəhidlərin ruhuna dualar edilib, namaz qılınıb.

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi İlham Səlimov deyib: "İgid oğullarımızın doğma Vətən, ana torpaq uğrunda göz qırpmadan həyatını qurban vermələrini qürurverici hadisə kimi yaşamalıyıq. Belə qəhrəman oğullarla qürur duymaq, fəxr etmək lazımdır. Ağlamalı gün onda olardı ki, vətən üçün ölmək istəyən oğullar tapılmayaydı...

Şəhidlərin məqamı onsuz da ucadır. Tanrının rəhməti də həmişə onlarladır. Bizim borcumuz onların ruhunu hər zaman şad etməkdir. Allah bizi bu xoş aqibətdən heç vaxt məhrum etməsin!"

## Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində və Avropa Yəhudiləri Sinaqoqunda Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib





Dekabrın 4-də Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanların xatirəsi yad edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda Katolik kilsəsinin apostol prefekturasının ordinarisi Vladimir Feketenin iştirakı ilə keçirilən mərasimdə dini ayinlər icra edilib, şəhidlərin ruhuna dualar oxunub.

Vladimir Fekete jurnalistlərə bildirib ki, bu kədərli, eyni zamanda, əlamətdar gündə müsəlmanlar, xristianlar, yəhudilər Vətən müharibəsi şəhidlərinin xatirəsini birgə anırlar.

"Biz Allahın xeyir-duası ilə əta olunmuş birlik və həmrəyliyimizi gələcək nəsillər üçün qoruyub saxlamağa borcluyuq. Katolik kilsəsi Azərbaycanın hakimiyyət orqanlarına, şəxsən Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, eləcə də bütün dini icmaların liderlərinə xalqın birliyinin qorunması və möhkəmləndirilməsində müstəsna roluna görə minnətdardır. Biz əminik ki, son söz ölümün deyil, həyatın olacaq", - deyə Vladimir Fekete vurğulayıb.

Katolik kilsəsinin apostol prefekturasının ordinarisi Azərbaycan xalqına sülh və rifah arzulayıb.

* * *

Dekabrın 4-də Bakıda Avropa Yəhudiləri Sinaqoqunda Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəmanlarımızın ruhu anılıb.

Azərbaycanın aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqalın iştirakı ilə dini ayinlər yerinə yetirilib, şəhidlərin ruhuna dualar oxunub.

Şneor Seqal bildirib ki, biz şəhidlərimizin xatirəsi üçün bugünkü ibadətlə kifayətlənməməliyik. O deyib: "Onlar bizə Qələbə bəxş etdilər, torpaqlarımızı işğaldan azad etdilər və biz oraya qayıda bilərik. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir şəhidin xatirəsi bizim üçün mühümdür".

Öz növbəsində, icmanın rəhbəri Aleksandr Şarovski deyib: "Bu gün biz torpaqlarımızın azadlığı uğrunda həyatını qurban verən əsgərlərimizin xatirəsi qarşısında ailələrimizlə, yəhudi qardaşlarımızla birgə baş əyirik. Prezident İlham Əliyevin rəhbərliyi altında bizim rəşadətli ordumuz işğalçıları torpaqlarımızdan qovdu. Bütün ölkə Vətənimizin azadlığı uğrunda canından keçən övladlarımızın, oğullarımızın ruhu qarşısında baş əyir".

# Biz birlikdə güclüyük!





# Vətəndaş məsuliyyəti ilə koronavirusa qalib gələ bilərik

Yeni növ koronavirus pandemiyası dünyanın əsas problemi olaraq qalmaqda davam edir. Artıq Yer üzündə bu virusa yoluxanların sayı sürətlə 70 milyona yaxınlaşır, bir milyondan çox insan isə həyatını itirib. İndiyə qədər ən çox yoluxma halı ABŞ, Hindistan və Braziliyada qeydə alınıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) nümayəndəsi Margaret Harris yalnız qapalı yerlərdə deyil, açıq havada da maska taxmağa çağırıb. Onun izah etdiyinə görə, təhlükəsiz məsafəni qorumağın mümkün olub-olmamasından asılı olmayaraq, kifayət qədər havalandırma olmayan yerlərdə maskalardan istifadə edilməlidir. Hətta otaqlar yaxşı havalandırılsa belə, bir-birindən bir metr məsafəni saxlamaq mümkün deyilsə, şəxsi qoruyucu vasitələrdən istifadə etmək zəruridir.

ÜST-nin sərt tövsiyələri artıq açıq yerlərə də tətbiq olunur: əgər küçədə digər insanlarla məsafə saxlamaq mümkün deyilsə, maskadan istifadə edilməlidir.

### Tövsiyələrə laqeyd yanaşma yoluxmanı artırır

Dünyanın bir guşəsi olan Azərbaycanda da son aylar koronavirusa yoluxma narahatedici sayda artıb. Vəziyyətin təhlili göstərir ki, gündəlik yoluxma sayı 4 min nəfəri ötüb, paralel olaraq ölüm sayı artıb. Mövcud tendensiya onu deməyə əsas verir ki, qarşıdan gələn günlərdə yoluxma hallarının sayı xeyli arta bilər. Bu da xəstələrin çarpayılarla təminatı, xəstəxanalara çatdırılması, vaxtında tibbi müdaxilənin edilməsi, təmasların izlənilməsi kimi zəruri tədbirlərin görülməsində çətinliklərə səbəb olar.

Təcrübə göstərir ki, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da insanlar vəziyyətin ciddiliyini, həyatları üçün potensial təhlükəni yaz və yay aylarında olduğu qədər məsuliyyətlə dərk etmir, bir çox hallarda ehtiyatsız davranır, mövcud qaydaları pozur, tövsiyələrə laqeyd yanaşırlar.

Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi ilə nəticələnən tarixi qələbə bir çox vətəndaşlar tərəfindən kütləvi şəkildə qeyd edilir, insanlarda yaranmış ruh yüksəkliyi COVID-19 pandemiyası təhlükəsini ikinci plana keçirir. Vətən müharibəsində şəhid olan insanların yas mərasimlərində kütləvi iştirak, torpaqların işğaldan azad olunmasının kütləvi qeyd edilməsi, yürüşlərin keçirilməsi COVID-19-un yayılması ilə bağlı vəziyyəti gərginləşdirib.

COVID-19-a qarşı mübarizədə son vaxtlar özünümüalicə kimi zərərli tendensiya da müşahidə olunur. Son günlər əhali arasında sistem vurulması hallarının çoxaldığını söyləyən TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun üzvü Nəzrin Mustafayeva bildirib ki, koronavirus səbəbindın əsas ağırlaşmalar xroniki xəstəlikləri olan şəxslərdə daha çox müşahidə olunur: “Ürək damar xəstəlikləri olanlarda, şəkərli diabet, xərçəng xəstələrində ağırlaşma daha çox müşahidə olunur. Yoluxanlardan 81 faizi xəstəliyi yüngül keçirir. Lakin bəzi həssas qrup şəxslər xəstəxanalara axın edir. Bəziləri isə həkimin təyin etmədiyi müalicələrə yönəlirlər. Son günlər əhali arasında sistem vurulması halları da çoxalıb. Xəstəliyin sonrakı günlərində bu insanlar daha da ağırlaşmış halda xəstəxanalara müraciət edirlər. Vətəndaşları təşvişə düşməməyə çağırırıq. Testin nəticəsi pozitiv olan bəzi şəxslər isə yaşadığı yerləri tərk edirlər. Bu da onların özü və ətrafdakılar üçün təhlükə yaradır. Bu şəxsləri karantin qaydalarına ciddi şəkildə riayət etməyə çağırırıq”.

### Virusa ikinci dəfə yoluxma ehtimalı var

TƏBİB-in infeksion xəstəlikləri üzrə işçi qrupunun rəhbəri, həkim-infeksionist Vasif Əliyev xəbərdarlıq edib ki, koronavirusa ikinci dəfə yoluxma ehtimalı var və bu, dünyada da təsdiqini tapıb. Öz təcrübəmizdə müşahidə etmişik ki, yayda yoluxan insanlarda yenidən eyni əlamətlər qeydə alınır. Bəlkə də bir müddətdən sonra belə hallarla daha da sıx rastlaşacağıq. Koronavirusa yoluxub sağalan insanların qanında anticisimlər yaranır. Həmin anticisimlər həm xəstəliyin keçirilib-keçirilmədiyini dəqiq göstərir, həm də bu xəstəliyə qarşı qoruyuculuqda əhəmiyyət kəsb edir. Zamanla anticisimlərin miqdarı azalır və nəticədə virusa yoluxanlarla təmas yenidən yoluxmaya səbəb olur.

V.Əliyev deyir ki, bu, insanın immun sistemi ilə əlaqədar olan bir məsələdir. Qripi təkrar olaraq keçirə biliriksə, koronavirusda da qoruyuculuq yaranmadığına görə təkrar yoluxma mümkündür. Təkrar yoluxma zamanı onu yüngül və ya ağır keçirmək yenidən yoluxma zamanı alınan virusun yükündən asılıdır. Hətta təkrar yoluxma zamanı xəstəliyi birinci dəfə müşahidə olunduğu kimi keçirmək mümkündür. Bu, insanın immun sistemindən və təmasda olduğu infeksiyadan, yəni virus yükündən asılıdır.

Həkim-infeksionist bildirib ki, koronavirusun ən azı yaz aylarına qədər davam edəcəyi dəqiqdir. Çünki kütləvi olaraq immunitet qazanılmadığı müddətdə bu virusun davam edəcəyi şübhəsizdir. Onun təkrar yoluxmasını da nəzərə alsaq, nə zaman bitəcəyini əvvəlcədən demək çox çətindir. Lakin koronavirus kütləvi peyvəndlə və ya gələcəkdə onun vilurentliyinin azaldılması, virus mutasiyaya uğrayıb daha yüngül formaya keçdikdən, mortallığı, yəni ölümcüllüyü minimuma endikdən sonra onu sonlandırmağa nail ola bilərik. Lakin virus hələ uzun müddət yoluxdurmağa davam edəcək: “Hazırda virusa yoluxmamağın yeganə yolu maskadan doğru istifadə etmək, kütləvi tədbirlərə qatılmamaq, gigiyena qaydalarına əməl etməkdir. Burada da həmrəylik göstərmək lazımdır. Dövlət tərəfindən atılan addımlarla yanaşı, vətəndaş həmrəyliyi də lazımdır. İctimai qınaq da olmalıdır, ətrafımızda maska taxmayan və doğru istifadə etməyənlərə öz iradımızı bildirməliyik. Əgər həmrəylik göstərməsək, qoyulan qayda-qanunlara əməl etməsək, o zaman virusun yayılma sürəti daha da arta bilər. Tendensiya yüksəlməyə doğru gedir. Baxmayaraq ki, maskadan istifadə tələbi daha da ciddiləşdirildi, düşünürəm ki, virusla yoluxma halları daha da artacaq”.

### Daha ciddi tədbirlərin görülməsinə ehtiyac var

Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, tibb elmləri doktoru Adil Allahverdiyev qeyd edib ki, hazırda Azərbaycanda daha ciddi tədbirlərin görülməsinə ehtiyac var: “Əks halda xəstəxanalarda xəstələrin müalicəsi üçün yer tapılmayacaq. Səhiyyə sistemi həm koronavirus xəstələrinin, həm də müharibədə yaralanan əsgər və zabitlərin müalicəsi ilə məşğul olur. Həkimlərimiz də yorulublar. Düşünürəm ki, sərt karantin tədbirləri tətbiq olunmadan yoluxmanın qarşısı alınmayacaq. Yoluxma saylarını azaltmaq və vəziyyəti nəzarət altına almaq üçün ən azı iki həftəlik sərt karantin tədbirlərinə ehtiyac var”.

Göründüyü kimi, artıq vəziyyət olduqca narahatedicidir. Mütəxəssislərin də həyəcan təbili çaldığı kimi, pandemiyaya qarşı tam səfərbər olmasaq, qaydalara əməl etməsək sağlamlığımızla bağlı qarşıda bizi daha ciddi sınaqlar gözləyə bilər.

COVID-19 virusu ilə mübarizədə ən vacib amil vətəndaş həmrəyliyi və dövlət-vətəndaş əməkdaşlığıdır. Buna görə də dövlətin virusun qarşısının alınması istiqamətində atdığı addımlara, pandemiyanın sadə tələblərinə əməl edərək töhfə verməliyik: maskadan düzgün istifadə etməli, sosial məsafəni qorumalı, əl gigiyenasına əməl etməli, kütləvi toplanma yerlərindən uzaq durmalıyıq.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Koronavirusa daha 4267 nəfər yoluxub, 2566 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4267 yoluxma faktı qeydə alınıb, 2566 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 41 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 138 min nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 83 min 800 nəfər müalicə olunaraq sağalıb, 1551 nəfər vəfat edib. Aktiv xəstə sayı




52649 nəfərdir. Ötən müddət ərzində 1 milyon 797 min 26 test aparılıb. Dünənki test sayı isə 15808-dir.

# Pandemiyaya qarşı görülən tədbirlərin səmərəli olması vətəndaşların qaydalara əməl etməsindən asılıdır

Analiz nəticələri pozitiv çıxan COVID-19 xəstələrinin evdə məcburi özünü təcrid qaydalarına əməl edilməsi Daxili İşlər Orqanları tərəfindən nəzarətdə saxlanılır.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, respublika ərazisində dekabrın 3-də epidemiya əleyhinə, sanitariya-gigiyena, karantin rejimlərinin pozulmasına səbəb olan 21 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə saxlanılaraq evə qaytarılıblar.

On yeddi nəfər barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması, xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda) maddəsi ilə cinayət işi başlanılıb. İstintaq araşdırmaları davam etdirilir.

DİN aktiv koronavirus xəstələrinin, eləcə də onların yaxınlarının diqqətinə çatdırır ki, pandemiyaya qarşı görülən tədbirlərin səmərəli olması vətəndaşların qaydalara əməl etməsindən asılıdır.

# Koronavirusun profilaktikası çərçivəsində reydlər davam edir

Yeni növ koronavirusun (COVID-19) profilaktikasına dair Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin icrasına nəzarət məqsədilə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ictimai iaşə obyektlərində reydlər davam etdirilir. Agentliyin əməkdaşları tərəfindən dekabrın 2-də Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu, eləcə də COVID-19 yoluxmalarının artması müşahidə olunan şəhər və rayonlar (Gəncə, Şəmkir, Sabirabad, Ağstafa, Mingəçevir) üzrə 488 ictimai iaşə obyektində 901 monitorinq keçirilib. Sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, reyd keçirilən obyektlərdən 43-də Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin tələblərindən irəli gələn bir sıra qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla əlaqədar həmin müəssisələr barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb. Həmin müəssisələr arasında Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun, ev 68 ünvanında yerləşən, hüquqi şəxs “Kobra” kiçik müəssisəsinə məxsus yeməkxana, Həsən Əliyev, ev 90 D ünvanında yerləşən, fiziki şəxs Məmmədov Şəadət Arif oğluna məxsus obyekt, A. M. Şərifzadə, ev 33 ünvanında yerləşən, fiziki şəxs Hüseynov Sənan Rasim oğluna məxsus “Kaktus” restoranı, Nizami rayonu, Qara Qarayev prospekti, ev 69 ünvanında yerləşən, fiziki şəxs Heydərov Sahib Sabir oğluna məxsus “Ləzzət dönər” evi, Nəsimi rayonu, Alı Mustafayev, 37B ünvanında yerləşən, fiziki şəxs İsmayılov Pənah Ələddin oğluna məxsus kafe, Nəsimi rayonu, Alı Mustafayev, 3-cü mikrorayon, ev 10 K ünvanında yerləşən, fiziki şəxs Arzu Ekici Bayraməli qızına məxsus kafe, Binəqədi rayonu, Süleyman Sani Axundov, ev 1 A ünvanında yerləşən, fiziki şəxs Nəbiyev Səfa Rəşadət oğluna məxsus “Cıdır Düzü” restoranı, Yasamal rayonu, Şərifzadə, ev 2 M ünvanında yerləşən, fiziki şəxs Bayramov Qalib Taryel oğluna məxsus “Quzu Təndir” restoranı, G.Mehmandarov küçəsində yerləşən, fiziki şəxs Həsənov Nail Telman oğluna məxsus kafe, Səbail rayonu, Yusif Məmmədəliyev, ev 19 m.1 A ünvanında yerləşən, fiziki şəxs Muradov Kamran Namiq oğluna məxsus “Nutelland” kafesi, hüquqi şəxs “Nabikoğlu” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Chef Baku” kafesi, Yeni Günəşli qəsəbəsində yerləşən, fiziki şəxs Rüstəmov Samin Ələddin oğluna məxsus kafe, Lökbatan qəsəbəsi, keçid 1596 ünvanında yerləşən, fiziki şəxs Əliyev Elməddin Nazim oğluna məxsus “Lion Garden” kafesi, Həsən Əliyev, ev 115 A ünvanında yerləşən, fiziki şəxs Hüseynov Elvin Fuqan oğluna məxsus kafe, Sulutəpə qəsəbəsi, R.Allahverdiyev, 11 ünvanında yerləşən, fiziki şəxs Xəlilov Bəhmən Məhəmməd oğluna məxsus kafe, H.Cavid prospekti, ev 8 ünvanında yerləşən, fiziki şəxs Mahmudov Alsavad Xalid oğluna məxsus “Şaurma №1” restoranı, Səbail rayonu, Neftçi Qurban Abbasov küçəsi, ev 24 A ünvanında yerləşən, fiziki şəxs Məhərrəmov Elgün Zakir oğluna məxsus kafe, Səbail rayonu, Neftçi Qurban Abbasov küçəsi, ev 7 M ünvanında yerləşən, fiziki şəxs Hüseynov Xəyyam Hüseyn oğluna məxsus yeməkxana, Biləcəri, R.İsmayılov, 8 ünvanında yerləşən, fiziki şəxs Namazov Telman Fərəc oğluna məxsus “Rəmiş” kafesi; Sumqayıt şəhəri, 3-cü mikrorayon ünvanında yerləşən, fiziki şəxs Rəhimov Zaur Tofiq oğluna məxsus “Köz Dönər” kafesi, 9-cu mikrorayonda yerləşən, fiziki şəxs Şamıyev Elvin Rəhim oğluna məxsus “Hicaz Dönər” kafesi, 13-cü mikrorayonda yerləşən, fiziki şəxs Əliyev İlham İsmayıl oğluna məxsus “Tea” kafesi, Səməd Vurğun, ev 25 ünvanında yerləşən, fiziki şəxs Zamanov Rasim Nadir oğluna məxsus “Rəvan” çay evi, 17-ci mikrorayonda yerləşən, fiziki şəxs Ağayev Seymur Engels oğluna məxsus “Ordubad” kafesi, 3-cü mikrorayon, Bakı küçəsində yerləşən, fiziki şəxs Cəfərov Nurəddin Allahverdi oğluna məxsus “Lider Dönər” kafesi, 34-cü məhəllədə yerləşən, fiziki şəxs Bayramov Müşviq Etibar oğluna məxsus “Dönər Kabab” kafesi, 3-cü mikrorayonda yerləşən, fiziki şəxs Şıxvəliyev İlham Gülməmməd oğluna məxsus “Bahar” kafesi, 40-cı məhəllədə yerləşən, fiziki şəxs Allahverdiyev Bəhram Sədirxan oğluna məxsus “Nərgiz” kafesi, Bədəlbəyli küçəsi, ev 22 ünvanında yerləşən, fiziki şəxs Hacıyev Həsən Qaimşad oğluna məxsus “Nübar” kafesi; Abşeron rayonu, Xırdalan şəhərində yerləşən, fiziki şəxs Mirzəyev Elçin Yaşar oğluna məxsus “Qədim Bakı” kafesi, Xırdalan şəhərində yerləşən, fiziki şəxs Bağırov Həşim Məmməd oğluna məxsus kafe, Mehdiabad qəsəbəsində yerləşən, fiziki şəxs Əlizadə Şahin Qərib oğluna məxsus “Zirvə” kafesi, Xırdalan şəhəri, H.Əliyev prospektində yerləşən, fiziki şəxs Soltanov Ramin Rəfayət oğluna məxsus “Aziz Baba” dönər evi, Saray ŞTQ-də yerləşən, fiziki şəxs Səmədov Rasim Rafiq oğluna məxsus “Ziya” kafesi, Buzovna ŞTQ, ev 342 M ünvanında yerləşən, fiziki şəxs Əskərov Azər Firudin oğluna məxsus “Sherlocks” kafesi, Ağstafa şəhəri, M.Ə.Rəsulzadə küçəsində yerləşən, fiziki şəxs Kosayev Qara Mirzə oğluna məxsus kafe, Şəmkir, Dəllər qəsəbəsində yerləşən, fiziki şəxs Aslanov Rövşən Akif oğluna məxsus kafe; Gəncə şəhəri Ş.İ.Xətai, 157 ünvanında yerləşən, fiziki şəxs Süleymanov Məmmədəli İslam oğluna məxsus kafe, Ş.İ.Xətai, ev 0 M ünvanında yerləşən, fiziki şəxs Tağızadə Heydər Fazil oğluna məxsus dönər evi, Təbriz küçəsi, ev 315 ünvanında yerləşən, fiziki şəxs Qurbanov Kamran Sədrəddin oğluna məxsus yeməkxana, Mingəçevir şəhərində yerləşən, fiziki şəxs Hacıyev Nurlan Arzuman oğluna məxsus obyekt, H.Hüseynov küçəsi, ev 30 M ünvanında yerləşən, fiziki şəxs Abbasov Rubail Yaşar oğluna məxsus restoran, Maqomayev, 14 ünvanında yerləşən, fiziki şəxs Rövşən Bilalov Rasim oğluna məxsus kafedə daha çox uyğunsuzluqlar aşkar edilib.

Qida Təhlükəsizliyi Agentliyi Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektlərində yoxlama-nəzarət tədbirlərini davam etdirir və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərə əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcək.

# Bölgələrdə yaşayış yerini qanunsuz tərk edən aktiv COVID-19 xəstələri barədə cinayət işi başlanıb

Koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.

Bərdə Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1955-ci il təvəllüdlü Məmmədov Çingiz Rəhim oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olduğunu bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, dekabrın 2-də sakinlərlə təmasda olmaqla epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Bərdə Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb. Cinayət işi istintaqın aparılması üçün aidiyyəti üzrə Bərdə Rayon Polis Şöbəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

❖ ❖ ❖

Binəqədi Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1970-ci il təvəllüdlü Soltanova Zinət Səlimxan qızı COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olduğunu bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, ötən gün rayon sakinləri ilə təmasda olmaqla epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb və istintaqın aparılması üçün aidiyyəti üzrə Binəqədi Rayon Polis İdarəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.





❖ ❖ ❖

Xəzər Rayon Polis İdarəsinin 3-cü polis bölməsinin əməkdaşları tərəfindən keçirilən müvafiq tədbirlər nəticəsində ev şəraitində müalicə alan koronavirus xəstəsi, Binə qəsəbəsində yaşayan Bahadur Əsgərovun virusun daha çox yayılmasına şərait yaratdığı müəyyənləşdirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırma zamanı COVID-19 virusunun aktiv daşıyıcısı olan həmin şəxsin karantin qaydalarını kobud şəkildə pozaraq polis əməkdaşlarının dəfələrlə etdikləri xəbərdarlıqlara baxmayaraq, yaşadığı ünvanı bir neçə dəfə tərk etdiyi məlum olub.

Bahadur Əsgərov müvafiq tibbi prosedurlar gözlənilməklə yaşadığı evə qaytarılıb. Onun barəsində toplanan materiallar rayon polis idarəsinin istintaq şöbəsinə göndərilib. Bahadur Əsgərov barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb.

❖ ❖ ❖

Mingəçevir Şəhər Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində koronavirus xəstəsinin taksi fəaliyyəti ilə məşğul olduğu müəyyənləşdirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, şəhər sakini Loğman Səfərovun COVID-19 testinin nəticəsi pozitiv olduğu üçün ona ev şəraitində müalicə təyin edilib, karantin qaydaları izah olunub. Lakin L.Səfərov xəbərdarlığa məhəl qoymayaraq yaşadığı evi tərk edib və özünə məxsus 02-BS-645 dövlət qeydiyyat nişanlı “Mercedes” markalı avtomobillə sərnişindaşıma fəaliyyəti ilə məşğul olub. O, yaşadığı ünvanı tərk etməklə və taksi fəaliyyəti ilə məşğul olmaqla karantin rejimi qaydalarını kobud şəkildə pozub, digər şəxslərin də infeksiyaya yoluxmasına şərait yaratmaqla onların sağlamlığını təhlükə altında qoyub.

Polis əməkdaşları həmin şəxsi idarə etdiyi avtomobillə şəhər ərazisində saxlayıblar. Əraziyə təcili tibbi yardım briqadası dəvət olunub və L.Səfərov yaşadığı ünvana geri qaytarılıb.

Onun barəsində Mingəçevir Şəhər Polis Şöbəsinin istintaq bölməsində cinayət işi başlanıb.

# İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinin görüntüləri



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinin görüntülərini paylaşıb.


# OXUCULARIN NƏZƏRİNƏ
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# İşğaldan azad olunan rayonların mərkəzləşmiş kitabxana sistemlərinin direktorları ilə videokonfrans təşkil olunub

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun şücaəti ilə erməni işğalından azad olunan rayonlarımızın Mərkəzləşmiş Kitabxana Sistemlərinin direktorları ilə onlayn videokonfrans keçirilib.

Dekabrın 3-də təşkil edilən M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə reallaşan onlayn konfransın əsas məqsədi 1992-1993-cü illərdə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş və bu gün Azərbaycan Ordusu tərəfindən azad edilən rayonlardakı kitabxanaların mövcud durumunu və onların qiymətli kitab fondlarının mühafizə vəziyyətini araşdırmaq və bu barədə beynəlxalq Kitabxana təşkilatı olan IFLA-ya müvafiq məlumatın verilməsindən ibarət olub.

Milli Kitabxanadan AZƏRTAC-a bildirilib ki, konfransda Ağdam, Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavənd rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin direktorları, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov və direktor müavini Ədibə İsmayılova iştirak ediblər.

Onlayn konfransı açan Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov konfrans iştirakçılarını salamlayaraq bu günlər Azərbaycan xalqının böyük qələbə sevinci içərisində olduğunu bildirərək bu qələbəni bizə bəxş edən Azərbaycan Respublikasının Prezidenti və Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevə, Azərbaycan Ordusunun zabit və əsgərlərinə Milli Kitabxananın kollektivi adından, telekonfrans iştirakçılarının adından və bütün Azərbaycanın kitabxanaçılar ordusu adından öz təşəkkürünü bildirib.

Sonra isə işğaldan azad olunan rayonların mərkəzi kitabxanalarının direktorları çıxış edərək işğaldan azad olunan ərazilərdəki kitabxanalar barədə məlumat veriblər. Şuşa şəhərinin və Xocavənd rayonunun mərkəzi kitabxanalarının binaları istisna olmaqla, digər bütün işğaldan azad olunan rayonlarda rayon, şəhər, qəsəbə və kənd kitabxanalarının binaları tamamilə dağıdılaraq yerlə-yeksan edilib, qiymətli kitab fondları isə talan olunaraq yandırılıb. Həmçinin işğaldan azad olunan 10 rayonun ərazisində fəaliyyət göstərən Mədəniyyət Nazirliyinin şəbəkəsinə daxil olan 734 kitabxana və onların fondlarında olan 4.587.696 nüsxə qiymətli kitab və digər çap məhsulları tamamilə dağıdılıb, yandırılıb və talan olunub. Qeyd edilib ki, Şuşa şəhər Mərkəzi Kitabxanası Qarabağın görkəmli ziyalısı, şairi və rəssamı Mir Mövsüm Nəvvab tərəfindən 1897-ci ildə yaradılıb və həmin kitabxana açılarkən Mir Mövsüm Nəvvab öz əlyazmalarının bir hissəsini və Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın şeirlərindən və çəkdiyi şəkillərdən ibarət dəftərləri də həmin kitabxanaya hədiyyə edib. Hazırda həmin qiymətli hədiyyələrdən bu kitabxanada əsər əlamət qalmayıb, onlar ya yandırılıb, yaxud da xarici ölkələrə daşınıb. Qubadlı rayon Mərkəzi Kitabxanasında görkəmli el şairi Seyid Nigarinin qiymətli əlyazması da erməni vandalları tərəfindən məhv edilib. Bütün bu faktlar göstərir ki, erməni işğalçılarının əsas məqsədi Azərbaycan xalqına məxsus olan qiymətli sərvətlərin məhv olunması və bu bölgələrdə Azərbaycana məxsus izin tamamilə silinməsi olub.

Vurğulanıb ki, bütün bu vəhşiliklər barədə məlumatları beynəlxalq miqyasda ən nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan IFLA-ya təqdim etməklə erməni işğalından azad olunan rayonların kitabxana işçilərinin və bütün Azərbaycan kitabxanaçılar ordusunun haqq səsini bu beynəlxalq təşkilata çatdırmaq vacibdir.

Sonda bütün telekonfrans iştirakçıları 1992-1993-cü illərdə erməni hərbi birləşmələri tərəfindən işğal olunan və bu gün işğaldan azad edilən rayonlarda bir vaxtlar fəaliyyət göstərən kitabxanaların tamamilə məhv edildiyi və onların fondlarında mühafizə edilən qiymətli kitabların erməni vandalları tərəfindən talan olunaraq dağıdılması, habelə bütün şəhər və kənd kitabxanalarının binalarının yerlə yeksan olunduğu barədə məlumatların onların adından nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan IFLA-ya çatdırılmasını Milli Kitabxana rəhbərliyindən xahiş ediblər.

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 03 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında (**https://www.etender.gov.az**) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən Çap və nüsxələmə avadanlıqlarına texniki xidmətin satın alınması üçün açıq tender üsulu ilə keçirilmiş elektron satınalmada iddiaçıların tender təklifləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinin tələblərinə əsasən kənarlaşdırılmış və bununla da elektron satınalma proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası "Moodle" proqram təminatına 2021-ci il üçün servis xidmətinin təşkili işinin satın alınması məqsədilə kotirovka sorğusu keçirir

Maraqlananlar +99412 564-09-00 telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 04.12.2020-ci il saat 16:00-dan 08.12.2020-ci il saat 11:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Fətəli Xan Xoyski prospekti, 98**
**Telefon: +99412 564-09-00**
**E-mail: info@sport.edu.az**

***Tender komissiyası***

## BİLDİRİŞ

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti tərəfindən etender.qov.az portalında 28.10.2020-ci il tarixdə elan edilmiş Nəqliyyat və xüsusi texnikaların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Az-Tex-İmport " MMC müəyyən edilmişdir.

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti və "Az-Tex-İmport" MMC arasında 04.12.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Sumqayıt şəhəri, 3 nömrəli Peşə Liseyinin əsaslı təmiri işlərinin satın alınması" və "Bakı şəhərinin bir sıra təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması" üzrə 02 dekabr 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderlərdə "S.H.İnşaat Xidməti" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 25.09.2020-ci il tarixdə keçirilmiş "Müxtəlif növ təsərrüfat mallarının satın alınması"na dair açıq tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 40.1-ci maddəsini əsas tutaraq ləğv edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən "Azərbaycan" qəzetinin 04 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və www.etender.gov.az portalında yerləşdirilmiş DOST mərkəzlərində 7 istiqamət üzrə monitorinq sisteminin yaradılması və monitorinq qruplarının təchizatı layihəsi üzrə proqram təminatının hazırlanması işlərinin satın alınması ilə bağlı keçiriləcək açıq tender üzrə tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 10.12.2020-ci il saat 16:00-a və zərflərin açılış tarixi və vaxtı 11.12.2020-ci il saat 16:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "İdman inventarlarının satın alınması" məqsədilə 06 noyabr 2020-ci il tarixdə keçirilmiş elektron tenderin yekun protokoluna uyğun olaraq "ST Mark" MMC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kollektivi **ELŞƏN MƏMMƏD OĞLU SEVDİMALIYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi meliorasiya sahəsinin veteranı **SADAY QULİYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən Zakir Quliyev Nəsimi rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi **ELMAN YAHYAYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hesablama Palatasının kollektivi palatanın sektor müdiri Səyavuş Mustafayevə qardaşı **MUSTAFA MUSTAFAYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Günay Sığorta" ASC-nin rəhbərliyi və kollektivi "Günay Bank" ASC İdarə Heyətinin sədri Barətəli Piriyevə anası **FİLYAR PİRİYEVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Günay Bank" ASC-nin rəhbərliyi və kollektivi bankın İdarə Heyətinin sədri Barətəli Piriyevə anası **FİLYAR PİRİYEVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov "Günay Bank" ASC İdarə Heyətinin sədri Barətəli Piriyevə anası **FİLYAR PİRİYEVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi İctimai Şuranın sədri Osman Gündüzə anası **NAZAY XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi "Lider" Vəkil Bürosunun müdiri **ƏLİ ƏLƏKBƏROVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7457
Sifariş 2757
Qiyməti 40 qəpik